Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

# Daşdəmirin nağılı



# Daşdəmirin nağılı



Gənclik
Bakı–1969

„Uşaqgəncnəşr“in 1952-ci ildə
nəşr etdiyi „Ağ atlı oğlan“
кitabından götürülub.

Uşaqlar üçün işləyəni
**M. h. Təhmasib** və **Q. Məmmədli**

Gənclik,
Bakı – 1969



# Daşdəmirin nağılı

Biri var idi, biri yox idi, Fatı qarı adlı bir arvad var idi. Fatı qarının qohumdan-qardaşdan, oğuldan-qızdan Daşdəmir adlı aman-zaman bir oğlu var idi. Daşdəmir çox ağıllı oğlan idi. Atası Zaman кişi hələ balaca vaxtından onu, belə ağıllı olduğunu görüb, Mirzə Möhsün adlı bir müəllimin yanına qoymuşdu кi, dərs oxusun. Daşdəmir bir neçə ilin içində əməlli-başlı yazıb-oxumağı öyrənmişdi.

Mirzə Möhsün gündə cürbəcür кöhnə кitablar oxuyardı, əhvalatlar danışardı. Daşdəmir Mirzə Möhsünü o qədər sevirdi

ki, gecələr də ondan ayrılmaq istəmirdi. Ancaq iş elə gətirdi ki, Daşdəmir Mirzə Möhsündən ayrılmalı oldu.

Daşdəmirin atası Zaman kişi çox bacarıqlı, zəhmətsevən bir bağban idi. Gecə yatmayıb, gündüz dincəlməyib özünə gözəl bir bağça düzəltmişdi. Bağçada elə gözəl güllər, elə gözəl meyvələr var idi ki, görən heyran qalırdı. Necə deyərlər, Zaman kişinin bağçasında can dərmanı desəydin, var idi. Zaman kişi bu güllərdən, meyvələrdən satıb külfətini dolandırırdı.

Zaman kişinin bu bağçası şəhərin kənarında, bir dəyirmanın yanında idi. Daşdəmir hələ bir yaşında olduğu zaman bu dəyirmanda qəribə bir iş olmuşdu. Bir gün səhər qonşular yuxudan durub gördülər ki, dəyirmançını da, arvadını da boğublar. Qonşular nə qədər soraqlaşdılar, axtardılarsa heç bir şey tapa bilmədilər. Bu işdən sonra bu dəyirmana heç kəs sahib durmadı. Dəyirman yavaş-yavaş xarabaya çevrildi.

Bu xaraba dəyirman haqqında camaat qəribə əhvalatlar danışmağa başladı. Bəziləri deyirdilər ki, bu dəyirmanda cinlər olur, bəziləri deyirdi, quldurlar olur.

Zaman kişi ağıllı, bacarıqlı olduğu kimi, həm də igid idi. Heç bir şeydən qorxmazdı. Dəyirmançı ilə arvadının dəyirmanda boğulmaqları, Zaman kişini fikrə salmışdı. Elə həmişə bu barədə fikirləşirdi. O bilirdi ki, cin adlı şey yoxdur.

Gecələrin birində Zaman kişi evdə yatmışdı, birdən dəyirmandan bir qışqırtı eşidildi. Zaman kişi dik qalxıb pəncərəyə yaxınlaşdı, xaraba dəyirmana baxdı. Çox qaranlıq idi. Amma Zaman kişinin iti gözləri bəzi şeylər seçirdi. Dəyirman həyətində bir neçə qaraltı, elə bil ki süpürləşirdilər. Onlar boğuşa-boğuşa içəriyə çəkildilər. Sonra bir səs də eşidildi. Amma bu səs qışqırıq deyildi, zarıltı idi. Elə bil kimi isə boğurdular.

Zaman кişi davam gətirə bilmədi. Fatı qarını da oyadıb, heç bir söz demədən dəyirmana cumdu. Səhər dəylrmandan iкi adamın ölüsünü tapdılar. İкisi də boğulmuşdu. Bunlardan birini hec кəs tanıya bilmədi. Amma biri Zaman кişi idi.

Fatı qarı nə qədər o yana, bu yana qaçdısa, bir şey çıxmadı. Axırda Mirzə Möhsünün yanına gedib padşaha ərizə yazdırdı. Padşah heç ərizəyə cavab da vermədi.

Fatı qarı oğlu Daşdəmirlə qaldı. Daşdəmir Mirzə Möhsündən heç ayrılmaq istəmirdi. Amma iş elə gətirdi кi, ayrılıb bağçanın işi ilə məşğul olmağa məcbur oldu.

Aylar кeçdi, İbrahim həm ağlı, həm də igidliyi ilə ətrafda şöhrət qazandı.

Günlərin bir günündə məhəllə cavanları icərisində mübahisə düşdü кi, кim özünü igid bilir, gedib xaraba dəyirmana mıx vursun. Daşdəmir yerindən durdu кi:

– Mən gedirəm.

Cavanlar gətirib Daşdəmirə bir mıx verdilər, bir də bir balta. Daşdəmir o qədər gözlədi кi, qaranlıq düşdü. Mıxı, baltanı, bir də zoğal ağacını götürüb dəyirmana getdi. Daşdəmir qorxmurdu. Amma xaraba dəyirman haqqında o qədər danışmışdılar кi, içəriyə girəndə onu vahimə basdı. Odur кi, ağacı çiynində hazır tutub fit çala-çala içəriyə girdi. Elə qaranlıqda yavaş-yavaş irəliləyirdi кi, arxadan bir səs eşitdi:

– Kimsən, dayan!

Daşdəmir geri döndü. Baxdı кi, dəyirmanın qapısını bir adam кəsib, amma bu adamın üzü qara bir dəsmalla örtülüdür, ancaq iкi gözü görünür. Daşdəmir yavaşca çiynindəкi ağacdan möhкəm yapışıb bir addım geri çəкildi.

Üzu örtülü adam dedi:

– Bəs sən bilmirsən ki, bura cinlərin məskənidir? Bəs sən bilmirsən ki, buraya quş gəlsə, qanad salmamış, qatır gəlsə, dırnaq tökməmiş, adam gəlsə, başını verməmiş qurtara bilməz?

– Bəli. Mən çoxlarından eşitmişəm ki, bura cinlərin məskənidir. İndi sən də deyirsən. Ancaq indi başa düşürəm ki, bunlar hamısı yalan imiş. Çünki sən cin deyilsən, adamsan.

Üzü örtülü adam dedi:

– Əgər sən məni cin bilsəydin, mən səni, bəlkə, buradan sağ buraxardım. İndi ki, sən mənim adam olduğumu bilibsən, gərək səni boğam ki, bu sirri heç kəsə deməyəsən.

Bunu deyib üzü örtülü adam Daşdəmirə hücum elədi. Daşdəmir onu yaxına buraxmayıb təpəsinə bir ağac ilişdirdi. Üzü örtülü adam geri çəkilib qılıncını siyirdi. Daşdəmirin üstünə gəldi. Daşdəmir ağacla, üzü örtülü adam qılıncla bir müddət vuruşdular. Axırda üzü örtülü adam vurub ağacı yerə saldı. Daşdəmiri silahsız görüb qılıncı onun başından endirmək istəyəndə, Daşdəmir cəld o biri əlindəki baltanı qabağa verdi. Qılınc baltaya elə güclə dəydi ki, qəbzəsindən qırılıb yerə düşdü. Üzü örtülü adam işi belə görəndə dəyirmanın dibinə tərəf qaçdı. Orada nə isə bir şaqqıltı eşidildi, üzü örtülü adam yox oldu. Daşdəmir nə qədər axtardısa, hec kəsi tapa bilmədi. Bir istədi ki, haray salıb camaatı buraya töksün. Amma fikirləşdi ki, belə işin üstü açılsa, o adamı tapmaq çətin olar. Bu gərək sirr olub qala.

Tez əlindəki mıxı yepə çaldı. Ağacını, baltanı, bir də vurub yepə saldığı qılıncı götürüb evlərinə gəldi. Gecəni səhərə qədər Daşdəmir yata bilmədi ki, bu işin axırına necə çatsın? Bu sirri necə açsın? Axırda bu qərara gəldi ki, gedib əhvalatı Mirzə Möhsünə danışsın. O, ağıllı adamdır. Məsləhət verib, yol göstərə bilər. Eləcə də elədi. Səhər Mirzə Möhsüngilə getdi. Əhvalatı, necə ki,

olmuşdu, danışdı. Mirzə Möhsün diqqətlə qulaq asdı, qılınca baxıb dedi :

– Oğlum, cin-zad ki deyirlər, bunlar hamısı yalandır. Oradakılar adamdırlar. Dəyirmançını da arvadı ilə onlar boğublar, yetim atanı da onlar öldürüblər. İndi də səni öldürmək istəyirmiş ki, sirr açılmasın. Ancaq sən yaxşı eləyibsən ki, bu barədə heç kəsə heç bir söz deməyibsən. Bu cür sirləri ancaq səbirlə, tədbirlə açmaq olar. Qulaq as, gör sənə nə deyirəm. Bizim şəhərin padşahı cavan bir adamdır. Amma onun çox hiyləgər bir vəziri var. Çoxdandır ki, bizim şəhərdə böyük bir quldur dəstəsi əmələ gəlib. Ayda bir dəfə, iki dəfə karvanların qabağını kəsib soyurlar. Padşah nə qədər əlləşirsə, bu quldurları tapa bilmir. Axırda padşah bu qərara gəlib ki, şəhərin dünyagörmüş ağıllı adamlarını çağırıb bu barədə onlarla məsləhətləşsin. İki gün bundan qabaq məni də cağırmışdı. Mən ona dedim ki, padşah sağ olsun, əgər bu quldur dəstəsi şəhərin böyük adamları ilə əlaqədar olmasaydı, çoxdan tapılmışdı. Çox güman var ki, bu quldurlar saraydakı adamlarla əlbirdirlər.

Mənim bu sözlərim onun çox xoşuna gəldi. İndi baxıram ki, mən elə bu sözü deməkdə haqlıymışam. Bu qılıncı ki, sən vurub qırıbsan, bu, şahanə qılıncdır. Bax, burada padişahın nişanı da var. Belə qılıncları padşah ən yaxın adamlarına bağışlayır. İndi tapmaq lazımdır ki, bu qılınc kimindir.

Daşdəmir sevincək dedi:

– Onu tapmağa nə var ki? Aparıb bu qılınc tiyəsini şaha verərik. Özü tapar ki, kimindir.

Mirzə Möhsün dedi:

– Yox, oğlum! Bu, çox qorxulu yoldur. Bəlkə, bu qılınc tiyəsi padşahın çox yaxın adamlarından birinindir. Onda padşah öz

adamını ələ verməmək üçün bizim başımızı batıra bilər. Belə işləri ancaq səbir və tədbirlə aşmaq olar.

Mirzə Möhsün qılıncı evdə gizlətdi, özü də durub padşahın yanına getdi. Daşdəmir də evlərinə qayıtdı.

Daşdəmir gəlib gördü ki, padşahın qoşun böyüyü Abas bəy bunların həyətindədir. Özü də anası Fatı qarı ilə deyişir. Soruşdu:

– Nə var? Nə olub?

Abas bəy dedi:

– O olub ki, gərək bu evdən çıxıb gedəsiniz. Bu ev də, bu bağça da bizimdir.

Daşdəmir dedi:

– Yaxşı, bu ev nə vaxtdan sizin olub?

Abas bəy dedi:

– Bu gecədən.

Daşdəmir dedi:

– Mən başa düşmürəm. Bu ev mənim atamdan qalmadır. Necə olur ki, bu gecədən o, sizin olur.

Abas bəy dedi:

– Mən işi məhkəməyə vermişəm. Sabah gəlib orada bilərsən.

Abas bəy bunu deyib cıxıb getdi. Daşdəmir gözlədi, elə ki, gecə oldu, durub Mirzə Möhsüngilə getdi ki, əhvalatı ona desin. Amma Mirzə Möhsünü evdə tapa bilmədi. Mirzənin çox ağıllı, çox da gözəl bir qızı var idi. Adı Nardan idi. Nardan qabağa çıxıb dedi ki, Mirzə Möhsün hələ qayıtmayıb. Daşdəmir evə döndü.

Səhər iki nəfər silahlı gəlib Daşdəmiri məhkəməyə apardılar. Abas bəy də öz adamları ilə gəldi, məhkəmə başlandı. Abas bəy danışıb dedi:

– Mən bu gecə yuxuda görmüşəm кi, evi bağça ilə bərabər mənim atam bunun atasına vermiş. İndi mən istəyirəm кi, bağı da, evi də geri qaytarsınlar.

Abas bəyin bu sözünə Daşdəmir qəhqəhə çəкib güldü. Öz ürəyində dedi: "Gör bu, nə qədər ağılsız adamdır. Özü axmaqdır, elə bilir кi, haкim də axmaqdır, heç yuxuda görməкlə də bir adamın evini alıb bir başqasına verərlər?"

Daşdəmirin gülməyinə haкim hirsləndi кi:

– Nəyə gülürsən? Yaxşısı budur кi, get, кişinin evini, bağını qaytar özünə.

Daşdəmirin gözləri кəlləsinə çıxdı, dedi:

– Haкim sağ olsun, belə də iş olar? Nə olsun кi, o, yuxuda görüb? Məgər hər adamın yuxuda gördüyü şey elə doğru olar?

Haкim hirslənib dedi:

– Hər adamın yuxuda gördüyü doğru olmaz. Amma Abas bəyin gördüyü doğru olar. O, hörmətli adamdır. Padşahın qoşun böyüyüdür. Belə adam yalandan yuxu görməz кi... İndi кi, görüb, deməк, doğrudur, sənə üç gün möhlət verirəm. Üç günə qədər evi də, bağı da təhvil verməlisən.

Daşdəmir nə qədər danışdısa, heç bir şey çıxmadı. Qayıdıb evlərinə gəldi, bir ərizə yazıb padşaha göndərdi. Sabahısı ərizəsinin cavabı gəldi. Padşah məhкəmənin qərarını təsdiq eləmişdi. Daşdəmirin ərizəsi rədd olunmuşdu.

Daşdəmir birbaş getdi Mirzə Möhsüngilə кi, əhvalatı ona xəbər versin. Amma Mirzə Möhsüngilin qapısını nə qədər döydüsə cavab verən olmadı. Axırda bir qonşu çıxıb dedi кi:

– Mirzə Möhsüngildə heç кəs yoxdur. Mirzə özü üç gündür itib. Qızı da iкi gün bundan qabaq кöçüb gedib.

Daşdəmirin öz dərdi yadından çıxdı ki, görəsən Mirzənin başına nə gəlmiş olar. Amma nə qədər fikirləşdisə, heç bir yerə çıxara bilmədi. Qayıdıb evə gəldi. Bütün günü fikirlə keçirdi.

Axşam idi, təzəcə qaranlıq düşmüşdü, qapı döyüldü. Daşdəmir qapını açdı, gördü ayağında çarıq, başında qıllı papaq, əlində dəyənək bir çobandır. Soruşdu:

– Nə istəyirsən?

Çoban dedi:

– Qonağam, şəhəri yaxşı tanımıram. Qəbul eləsən, bu gecəni sizdə yatıb, səhər cıxıb gedərəm.

Daşdəmir dedi:

– Buyurun içəriyə! Qonaqsan, gözümün üstündə yerin var.

Qonaq içəriyə gəldi. Fatı qarı çay qoydu, xörək gətirdi. Yedilər, içdilər, söhbətə başladılar. Qonaq dedi:

– Çobanam. Öz qardaşlarımın qoyununu otarıram. Padşahın qoşun böyüyü Abas bəyə üç-dörd dənə qoyun gətirmişdim. Məni o qədər gecikdirdi ki, qaranlıq düşdü, qayıda bilmədim.

Daşdəmir dedi:

– Bəs Abas bəy səni niyə qonaq saxlamadı?

Qonaq dedi:

– Mən kiməm ki, Abas bəy məni qonaq saxlaya? Hələ az qalmışdı, məni döydürsün ki, niyə az gətirmisən. Çox zülmkar, acgöz adamdır. Kimdə nə yaxşı şey görsə, o saat gördüyündən göz payı istəyir.

Daşdəmirin dərdi təzələndi. O da açıb öz ev əhvalatını, məhkəmə əhvalatını qonağa danışdı. Qonaq dedi:

– Niyə padşaha ərizə vermirsən?

Daşdəmir ərizəsini ona göstərib dedi:,

– Elə padşah da onun tayıdır da. Budur, ərizə vermişdim, rədd eləyib.

Qonaq dedi:

– Yaxşı, mən ki, bu gün gördüm, Abas bəyin gözəl evi var, bağı var. Sənin bu balaca daxman onun nəyinə gərəkdir?

Daşdəmir az qaldı ki, açıb dəyirmanda başına gələn əhvalatı ona danışsın. Birdən Mirzə Möhsünün tapşırığı yadına düşdü ki, bu iş gərək sirr kimi qalsın. Dedi:

– Qonaq qardaş, bu, elə bir sirrdir ki, vaxtı catmamış açmaq olmaz.

Elə bu söhbətdə qapı döyüldü. Daşdəmir durub qapını açdı. İçəriyə qara çadraya bürünmüş bir qadın girdi. Fatı qarı tez qabağa çıxıb qadını qarşıladı, o biri otağa aparmaq istədi. Qadın getməyib, elə buradaca oturdu, sonra Daşdəmirdən soruşdu:

– Sənə üç sualım var, üçünə də yaxşı-yaxşı fikirləşib, sonra cavab ver! Birinci, de görüm, bu qonaq kimdir?

Daşdəmir dedi ki:

– Bu şəhərin adamı deyil. Dağlarda yaşayan bir çobandır. Səhər çıxıb gedəcək.

Qadın dedi:

– İkinci sualım budur ki, de görüm, sən Mirzə Möhsünə kömək eləmək istəyirsənmi?

Daşdəmir dik qalxdı ki:

– Mən Mirzə Möhsün üçün başımdan keçməyə hazıram. De görüm, sən kimsən? Mirzə Möhsün hardadır?.

Qadın dedi:

– Üçuncü sualıma cavab ver! De görüm, sirr saxlamağı bacarırsanmı?

Daşdəmir hirsləndi. Dedi:

– Bacı, mən Mirzə Möhsündən dərs almışam.

Qadın onun sözünü kəsib dedi:

– İndi ki, Mirzə Möhsündən dərs alıbsan, onda cavab ver!

Bunu deyib qadın çadrasının altından bir boşqab çıxarıb Daşdəmirin qabağına qoydu. Daşdəmir baxıb gerdü ki, boşqabda bir nar var, bir top iynə var, bir qayçı var, bir varaq kağız var, bir tikə ət var, bir də bir bıçaq var.

Qadın dedi:

– Əgər Mirzə Möhsündən öyrəndiklərin yadından çıxmayıbsa, bu şeylərdə gərək çətinlik çəkməyəsən.

Daşdəmir heç bir söz demədi. Bıçağı götürüb əti tikə-tikə doğradı. Qayçını götürüb kağızı kəsik-kəsik elədi, sonra iynələri bircə-bircə nara sancıb boşqaba qoydu. Qadın güldü, dedi:

– Afərin! Ancaq de görüm, bununla nə demək istəyirsən? Daşdəmir dedi:

– Xanım, mən başa düşdüm ki, sən mənə bir gizli sirr demək istəyirsən, ancaq qorxursan. Mən bununla demək istəyirəm ki, əgər mənim bədənimi bu ət parçası kimi parçalasalar, bu kağız kimi tikə-tikə doğrasalar, bu nar kimi oxla doldursalar, yenə də bu sirri heç kəsə açmaram. Qorxma, danış!

Bunu deyəndə qadın üzünü açdı. Daşdəmir baxdı ki, bu, Mirzə Möhsünün qızı Nardandır.

Daşdəmir soruşdu:

– Bu, nə haldır? Atan hardadır?

Nardan dedi:

– Dayan! Elə bunun üçün gəlmişəm.

Sonra Nardan oturub başladı danışmağa. Dedi:

– Daşdəmir, o gün ki, atam saraya, padşahın yanına getdi, daha geri qayıtmadı. Bu günə qədər də başına nə gəldiyini bilmirəm. Ancaq elə həmən gün bizim bir qonşumuz mənə beş dənə şey gətirdi ki: "Atan bazarda məni gördü, bu şeyləri alıb

verdi ki, sənə catdırım”. Mən şübhələndim ki, atamın başına bir iş gəlib. Odur ki, daha o evdə qalmayıb, gecə ilə köçdüm. Atamın göndərdiyi şeylərdən üçünü başa duşürəm, ikisini başa düşə bilmirəm. Səni buna görə axtarırdım ki, mənə kömək eləyəsən.

Daşdəmir dedi:

– Atanın göndərdiyi şeylər nədir?

Nardan dedi:

– Atam bir armud, bir gavalı, bir əl dəyirmanı, bir parça dəmir, bir dənə də daş göndərib. Əl dəyirmanı ovdandır. Daşla dəmir də sənsən. Amma armudla gavalını başa düşə bilmirəm. – Nardan bunu deyib, çadrasının altından bir armud, bir də bir gavalı çıxarıb Daşdəmirə verdi. Daşdəmir meyvələri görən kimi güldü. Dedi:

– Sən düz tapıbsan. Daş, dəmir, əl dəyirmanı sən dediyin kimidir. Ancaq mən bu meyvələri də tapdım.

Nardan soruşdu:

– Nədir?

Daşdəmir elə istəyirdi desin, birdən dönüb qonağa baxdı.

Dedi:

– Qonağın yuxusu gəlir. Qoy anam ona yer salsın, biz keçək o biri otağa.

Durub o biri otağa keçdilər. Daşdəmir armudu Nardana göstərib dedi:

– Nardan, bu armudun adı Abasbəyi armududur. Bu gavalıya da bağbanlar vəzir Alı deyərlər. Atan demək istəyir ki, Daşdəmirin xaraba dəyirmanda başına gələn iş padşahın qoşun böyüyü Abas bəylə, bir də vəzirlə əlaqədardır.

Nardan baxdı ki, Daşdəmir düz deyir. Soruşdu ki:

– Bəs indi biz nə eləyək?

Daşdəmir dedi:

– Birinci iş budur ki, biz gərək bu sirri gizli saxlayaq. İkinci odur ki, gərək atanın yerini öyrənək.

Nardan dedi:

– Necə öyrənək?

Daşdəmir dedi:

– Mən anamı köçürəcəyəm sənin yanına. O, çox igid arvaddır. Özü də yaşlı, dünyagörmüş adamdır. Siz bir yerdə qalarsınız. Mən də calışıb bir yol ilə atanın yerini taparam. Onunla məsləhətləşməmiş heç bir iş görmək olmaz. Sonra Daşdəmir öz başına gələnləri, Abas bəyin onu məhkəməyə verdiyini, padşahın da ərizəni rədd elədiyini Nardana danışdı. Sonra anasını da ona qoşub evlərinə göndərdi, qonağın yanına qayıtdı. Baxdı ki, qonaq hələ yatmayıb. Qonaq dedi:

– Amma Daşdəmir qardaş, sizin bu işlərinizdən mən heç bir şey başa düşmədim.

Daşdəmir dedi:

– Elə başa düşməsən yaxşıdır, çoban qardaş.

Qonaq gördü ki, Daşdəmir bu barədə danışmaq istəmir. Söhbəti dəyişdirdi. Dedi:

– Yaxşı, demək sabah yox, o biri gün Abas bəy bu evi səndən alacaq.

Daşdəmir dedi:

– Ala bilsə, alar. Sabah yox, o biri gün padşahın yanına gedəcəyəm.

Qonaq dedi:

– Padşahın yanına səni buraxarlarmı?

Daşdəmir dedi:

– Onlara qalsa, buraxmazlar. Amma mən də Daşdəmirəm. Elə bir iş düzəldəcəyəm ki, padşah özü məni yanına cağıracaq.

Oradan-buradan bir az da söhbət elədilər, yatdılar. Səhər çoban getdi. Daşdəmir o günü də başa vurdu. Gecəni keçirdi. Səhər tezdən dan yeri təzəcə ağaranda durdu, bir külüng, bir də bir bel götürüb düz padşahın sarayının yanına gəldi. Sarayın özülünü qazmağa başladı. Səs-küyə saray keşikçiləri tökülüb gəldilər. Daşdəmiri tutub içəriyə apardılar. Nə qədər soruşdular ki, oranı niyə qazırdın?

Daşdəmir dedi:

– Padşahdan başqa heç kəsə heç bir söz deyə bilmərəm. Axırda onu padşahın yanına apardılar. Daşdəmir içəriyə girib gördü ki, padşah taxtın üstündə oturub, vəzirlə Abas bəy də buradadır. Amma padşahın üzü bir ipək dəsmalla örtülüdür.

Padşah soruşdu:

– A gədə, de görüm kimsən, nəçisən? Oranı niyə qazırdın?

Daşdəmir dedi:

– Padşah sağ olsun, orada yeddi küp qızıl var. Qazırdım ki, onları çıxarım.

Padşah dedi:

– Nə bilirsən, orada qızıl var?

Daşdəmir dedi:

– Padşah sağ olsun, bu gecə yuxuda görmüşəm.

Padşah dedi:

– Ədə, ay axmaq, bəyəm adam yuxuda hər nə görsə, o, doğru olar?

Daşdəmir dedi:

– Padşah sağ olsun, mən də əvvəl elə bilirdim, yuxuda görülən şey doğru olmaz. Ancaq sizin bu qoşun böyüyü Abas

bəylə, bu vəziriniz mənə öyrətdilər ki, yuxuda görülən şeylər doğru olur.

Padşah dedi:

– Ətraflı danış görüm, nə olub?

Daşdəmir bütün əhvalatı danışıb axırda dedi:

– Padşah sağ olsun, indi sən özün de görək, bu, necə olur ki, dövlətlilərin gördükləri yuxular doğru olur, kasıbların gördükləri doğru olmur!

Padşah vəzirlə Abas bəyə əmr elədi ki:

– Bu saat gedib məhkəmənin qərarını heç elərsiniz, bu oğlanın evini özünə qaytararsınız.

Vəzirlə Abas bəy çıxdılar. Padşah qapıçıya dedi:

– Dünən sənə tapşırdığım şeyi gətir!

Qapıçı gedib bir podnos gətirdi. Padşah əmr elədi, qapıçı podnosu Daşdəmirin qabağına qoydu. Daşdəmir baxdı ki, podnosda bir nar, bir top iynə, bir qayçı, bir varaq kağız, bir tikə ət, bir də bir bıçaq var. Padşah dedi:

– Əgər Mirzə Möhsündən dərs alıbsansa, cavab ver!

Daşdəmir heyrətdən buz kimi dondu. Amma özünü sındırmayıb Nardan üçün elədiklərini burada da elədi. Padşah güldü. Dedi:

– Demək, söz verirsən ki, mənim sirrimi açmayacaqsan.

Daşdəmir dedi:

– Bəli.

Padşah üzünü açdı. Daşdəmir baxdı ki, bu, həmən gecə onlarda qonaq qalan çobandır. Padşah dedi:

– Sənin ərizəni mən qəsdən rədd eləmişdim ki, sonra yanına gələm, sənin fikrini öyrənəm. Mən öz adamlarımdan şübhələnmişəm. Deyəsən, Mirzə Möhsün haqlı imiş. Bütün bu işləri elə-

yən, deyəsən, vəzirlə Abas bəydi. O gecə mən qəsdən paltarımı dəyişib sizə gəlmişdim. Ancaq bu sirri burada heç kəs bilmir. Bir sən bilirsən, bir də mən. Sən də söz verdin ki, bu sirri açmayacaqsan. Ancaq mən o gecə gördüm ki, sən bu barədə çox şeylər bilirsən. İndi de görüm, o dəyirman nə idi, o meyvələr nə idi? Mirzə Möhsün haradadır?

Daşdəmiri fikir götürdü. Ola bilərdi ki, padşah, doğrudan da, öz adamlarından şübhələnib, ancaq tək özü bu işi həll eləyib, bir yana çıxara bilmir. Ancaq bu da ola bilərdi ki, elə padşah özü də onlarla əlbirdir. Bu yol ilə sirri öyrənmək istəyir.

Dedi:

– Padşah sağ olsun, mən sizin öz yanınızda o qıza söz verdim ki, mənə hər kim hər nə cəza versə də, mən bu sirri açmayacağam. Odur ki, siz nahaq yerə bunları məndən soruşursunuz. Mən heç bir şey bilmirəm.

Padşah dedi:

– Daşdəmir, sən cox şey bilirsən. Gəl inad eləmə! Bildiklərini mənə de!

Daşdəmir dedi:

– Padşah sağ olsun, mən heç bir şey bilmirəm.

Padşah dedi:

– Nə qədər ki, bildiklərini mənə deməmisən, mən səni burada saxlayacağam.

Sonra keşikçilərə əmr elədi ki, onu aparıb zindana salsınlar. Ancaq incitməsinlər. Özünü də gündə bir dəfə onun yanına gətirsinlər. Daşdəmiri aparıb zindana saldılar.

Heç kəs özünün zindana düşməyinə razı olmazdı. Amma Daşdəmir zindana düşməyindən razı qaldı. Ona görə razı qaldı ki, Mirzə Möhsünü orada tapdı. Onun zindana düşməyindən

Mirzə Möhsün də razı qaldı. O qədər gözlədilər ki, gecə düşdü, dustaqlar yatışdı, sonra Mirzə Möhsün dedi:

– Oğlum, məni vəzirlə Abas bəy buraya salıblar. Ayrı əlacları da yox idi. Əgər onlar məni buraya salmasa idilər, mən onların işinin üstünü açacaqdım. Məsələ belə oldu: padşahın fikri bu imiş ki, məni özünə məsləhətçi götürsün. Vəzirlə Abas bəy sözü bir yerə qoyurlar ki, məni padşahın gözündən salsınlar. Mənim də bu işdən xəbərim yox, həmin gün, axırıncı dəfə mən saraya getdim. Çox tez olduğuna görə padşah hələ gəlməmişdi. Vəzir məni öz otağına apardı ki, yaxşı kəlləpaça bişirtdirmişəm, gəl yeyək. Mən də yedim. Qurtarandan sonra vəzir mənə dedi ki, padşahın sarımsaq iyindən xoşu gəlmir. Odur ki, mən də padşahın yanına girəndə dəsmalı ağzıma tutub bir az aralı dayandım. Padşah məni belə görən kimi hirsləndi. Əmr elədi ki, cəllad mənim boynumu vursun. Sən demə, vəzir məni aldadıb sarımsaq yedirib, padşaha da deyib ki, guya, mən demişəm ki, padşahın ağzından qoxu gəlir, mən dayana bilmirəm. Mənim dəsmalı ağzıma tutub, uzaqda dayanmağım da padşah üçün bunu lap sübut eləyir. Odur ki, əmr elədi ki, mənim boynumu vursunlar. Elə bu xəbəri eşitcək, vəzir də, Abas bəy də sevincək gəldilər. Mən fikir verib gördüm ki, Abas bəyin şahanə qılıncı qınına yaxşı oturmayıb, o saat sənin dəyirmandan gətirdiyin qılınc tiyəsi mənim yadıma düşdü. Dedim, hər nə olur-olsun, ölürəmsə də, qoy bu sirri açım, sonra ölüm. Odur ki, padşaha dedim:

– Padşah sağ olsun, indi ki, məni öldürürsünüz, arzum budur ki, boynumu qoşun böyüyü Abas bəy vursun, özü də sizin ona bağışladığınız şahanə qılıncla vursun.

Padşah fiкrə getdi, bir mənə baxdı, sonra üzunü Abas bəyə tutub əmr etdi кi, vur onun boynunu! Abas bəy başladı yalvarmağa кi: “Padşah sağ olsun, bunun heç bir günahı yoxdur, qoy bağışlayaq”. Padşah yenə fiкrə getdi, yenə də bir mənə baxdı, bir də ona baxıb dedi:

– Uzun danışma, çəк şahanə qılıncı, vur onun boynunu. Abas bəy əlini qılıncın qızıl qəbzəsinə atıb dedi:

–"Padşah sağ olsun, deyirsən vur, vururam, amma onun günahı yoxdur. Əgər günahı varsa, qoy elə bircə dəfədə başı yerə düşsün. Əgər günahı yoxdursa, mənim şahanə qılıncım taxtaya dönsün".

Abas bəy qılıncı çəкdi, nə görsəm yaxşıdır... Şahanə qılıncın tiyəsi taxtadan. Hamı fiкrə getdi. Padşah da fiкrə getdi. Üzünü mənə tutub dedi:

– Görünür кi, sən günahкar deyilmişsən. Get, sabah gələrsən mənim yanıma.

Məsələ mənim üçün lap aydın oldu. Aydın oldu кi, xaraba dəyirmanda səninlə vuruşan adam Abas bəy imiş. Sənin qırdığın qılınc da Abas bəyin şahanə qılıncı imiş. Hələ fürsət tapıb qılıncı qayırtdıra bilmədiyinə görə padşah şübhələnməsin deyə, qızıl qəbzəyə taxtadan tiyə qayırtdırmışdı. Bu işdən sonra, əlbəttə кi, onlar məni rahat qoymazdılar. Odur кi, təzəcə bazara çatmışdım кi, məni tutub gətirib buraya saldılar.

Daşdəmir dedi:

– Biz sənin göndərdiyin şeylərdən işi başa düşmüşdüк.

O da öz başına gələnləri Mirzə Möhsünə danışdı.

Mirzə Möhsün dedi:

– Çox güman кi, padşah elə, doğrudan da, pis adam deyil, ancaq cavan olduğuna görə Abas bəylə vəzir onu əllərində

oynadırlar. Ancaq ona da tamam inanmaq olmaz. Hər halda sən sirri ona vermə. Ehtiyatlı ol, görək başımıza nə gəlir.

Bu işin üstündən bir necə gün keçdi. Hər gün padşah Daşdəmiri yanına çağırıb sirri ondan soruşurdu. Daşdəmir də deyirdi ki, mən heç nə bilmirəm. Nə Daşdəmir bildiklərini ona deyirdi, nə də o, Daşdəmiri zindandan buraxdırırdı.

Günlərin bir günündə padşah yuxudan oyanıb gördü ki, düşmən olan qonşu bir padşahın qoşunu şəhəri dövrəyə alıb öz adamlarını göndərib soruşdu ki, nə istəyirlər, dedilər ki, bizim bir sualımız var, ya gərək suala cavab verəsiz, ya da bizə təslim olasız. Padşah soruşdu ki, sualınız nədir? Dedilər ki, sabah şəhərinizin bütün ağıllı adamlarını yığın, gəlib sualımızı deyəcəyik.

Padşah car çəkdirdi, şəhərin bütün ağıllı adamlarını yığdı. Sabah açıldı. Düşmən padşahın adamları iki dənə bir boyda, bir biçimdə, bir rəngdə madyan at gətirdilər ki, tapın görək bunlardan hansı anadı, hansı bala! Amma atların dişlərinə baxmaq olmaz.

Adamlar nə qədər baxdılar, fikirləşdilərsə, heç kəs cəsarət eləyib bir söz deyə bilmədi. Axırda padşah qapıçını çağırıb əmr elədi ki:

– Get, zindandan Daşdəmiri gətir.

Daşdəmiri gətirdilər. Padşah əhvalatı ona danışıb dedi:

– Ümidim bircə sənədir. Mirzə Möhsün itibsə də, sən onun yerindəsən, gərək bu suala cavab verəsən.

Daşdəmir dedi:

– Gözüm üstə, əmr eləyin, burada iki axur qayırsınlar, hərəsinə də bir az arpa töksünlər.

Elə ki, axurlar hazır oldu, Daşdəmir atların ikisinin də cilovunu başlarından çıxarıb axurlara buraxdı. Arpanı görcək atların biri kişnədi. O birisi qaçıb onun yanına getdi.

Daşdəmir dedi:

– Padşah sağ olsun, kişnəyən at anadır, onun yanına qaçan da bala.

Hamı Daşdəmirə afərin dedi.

Düşmən tərəf də atlarını götürüb kor-peşman getdi.

Hamı gedəndən sonra padşah Daşdəmirə dedi:

– Çox sağ ol! Sən olmasaydın, işimiz şuluq idi. Məndən hər nə istəyirsən istə. Daşdəmir dedi:

– Padşah sağ olsun, mənə sənin heç bir şeyin lazım deyil. İstəyim budur ki, məni azad eləyəsən, çıxıb gedəm.

Padşah dedi:

– O barədə danışma. Sirri deməmiş səni buraxası deyiləm. De görüm o qız sənə nə dedi? O meyvələr nə idi?

Daşdəmir dedi:

– Padşah sağ olsun, mən o barədə heç bir söz deməyəcəyəm.

Padşah dedi:

– Nə qədər ki, deməmisən, zindanda qalacaqsan.

Bunu deyib əmr elədi, yenə də Daşdəmiri zindana apardılar.

Zindanda Daşdəmir əhvalatı Mirzə Möhsünə danışdı.

Mirzə Möhsün dedi:

– Yaxşı eləmisən ki, heç bir söz deməmisən. Ehtiyatlı olmaq lazımdır. Ancaq o padşahın adamları əl çəkməyəcəklər, yenə də gələcəklər. Yenə də padşah səni çağırsa, onunla bir şərt kəsib sonra suala cavab verərsən.

Daşdəmir soruşdu:

– Nə şərt?

Mirzə Möhsün dedi:

– Bu padşah başqa padşahlara bənzəmir. Deyəsən, bu, doğrudan da, yaxşı adama oxşayır, ancaq yenə də inanmaq olmaz. Mən bir məsələdən şübhələnmişəm. Əgər sən bir işi öyrənə bilsən, biz bu padşahı yaxşıca tanıyarıq, ondan sonra da bilərik ki, işi ona açmaq olar, ya olmaz.

Bu işin üstündən iki gün keçdi, üçüncü gün düşmən padşahın adamları yenə də gəldilər. Bu dəfə çox qəribə bir sual gətirmişdilər. Amma çox da çətin idi. Torpağın üstündə bir dənə yumru çevrə çəkib soruşdular ki, ya bu suala cavab verin, ya da təslim olun. Nə qədər adam yığılmışdısa, bu sualdan heç kəs heç nə başa düşmədi. Padşah yenə də Daşdəmiri çağırtdırdı. Daşdəmir gedəndə, Mirzə Möhsün ona dedi:

– Padşah səndən soruşacaq ki, məndən nə istəyirsən, deyərsən ki, səndən bircə xahişim var, o da budur ki, ananı çağırasan öz yanında, ondan bir şey soruşacağam, sonra da bütün sirləri sənə açıb deyəcəyəm. Padşah anasını çağıracaq. Onda anasından soruşarsan: "Bir ana ki, bilə-bilə öz balasını itirə, belə ananın cəzası nədir?" O, nə eləsə, gəlib mənə deyərsən.

Daşdəmiri məclisə apardılar. Padşah çevrəni ona göstərib cavab istədi. Daşdəmir əlinə bir ağac alıb, çevrəni ortadan iki yerə böldü. Düşmən tərəf işi belə görəndə gətirib çevrənin bir tərəfinə bir ox qoydular. Daşdəmir də padşahın qılıncını götürüb ikinci tərəfə qoydu. Belə olanda düşmən tərəf çevrənin içinə bir ovuc darı tökdü. Daşdəmir tez əmr elədi, bir xoruz tutub gətirdilər. Xoruz bütün darını dənlədi. Düşmən tərəf heç nə deməyib, yola düzəldi.

Bu danışıqsız sual-cavaba hamı məəttəl qalmışdı.

Padşah soruşdu:

– Daşdəmir, mən heç bir şey başa düşmədim. De görüm, onlar nə soruşurdu, sən nə cavab verirdin?

Daşdəmir dedi:

– Padşah sağ olsun, o çevrəni ki, onlar çəkmişdilər, demək istəyirdilər ki, bütün dünya gərək bizim ola. Mən də araya xətt çəkib dedim ki, bizim bu dünyada öz yerimiz var, heç kəsi oraya qoymarıq. Sonra onlar ortaya ox qoydular ki, əgər belə olsa, biz dava eləyəcəyik. Mən də sənin qılıncını çəkib onların qabağına qoydum ki, biz sizdən qorxmuruq. Sonra onlar çevrəyə darı tökdülər ki, bizim qoşunumuzun sayı-hesabı yoxdur. Mən də bütün darını bir xoruza dənlətdim ki, bizdə də belə oğlanlar var. Ona görə də durub getdilər.

Padşah dedi:

– Sağ ol, Daşdəmir, sən olmasaydın, biz heç birimiz onlara cavab verə bilməyəcəkdik. De görüm, məndən nə istəyirsən.

Daşdəmir dedi:

– Padşah sağ olsun, mən bilirəm ki, sirri deməmiş sən məni azad eləməyəcəksən. Mən də sirri sənə deməyəcəyəm. Odur ki, bu barədə danışmayaq. İndi mənim səndən bir xahişim var. O da budur ki, ananızı cağırasınız buraya, sizin yanınızda ondan bir söz soruşacağam.

Padşah əmr elədi, otağın bir tərəfinə pərdə çəkdilər. Otaqda bir padşah, bir də Daşdəmir qaldı. Padşahın anası da gəlib pərdənin arxasında əyləşdi. Daşdəmir pərdəyə yaxınlaşıb dedi:

– Xanım, o ana ki, bilə-bilə öz balasının itməyinə səbəb ola, o ananın cəzası nədir?

Elə Daşdəmir sözünü qurtaran kimi pərdənin dalından bir qışqırtı eşidildi. Padşah yüyürüb gördü ki, anası yıxılıb özündən gedib. Padşah geri dönüb Daşdəmirdən soruşdu:

– De görüm, bu, nə söz idi? Sən ona nə dedin?

Daşdəmir dedi:

– Padşah sağ olsun, mən bunu sizə hələlik deyə bilmərəm. Çünki buna ixtiyarım yoxdur.

Padşah əmr elədi. Daşdəmiri yenə də zindana apardılar. Daşdəmir əhvalatı Mirzə Möhsünə danışdı. Mirzə Möhsün dedi:

– İndi hər şey mənə aydındır. Padşahdan çox qorxma! Amma vəzirdən, bir də Abas bəydən özünü gözlə! Daha hər şeyi açıb padşaha demək olar. Xaraba dəyirman əhvalatını da, qılınc məsələsini də, mənim zindanda olmağımı da ona demək olar. O, məni yanına çağıranda mən elə bir sirr açacağam ki, hamınız məəttəl qalacaqsınız.

Daşdəmir dedi:

– Yox... Mən Nardana söz vermişəm. Ondan xəbərsiz bu barədə heç kəsə bir söz deməyəcəyəm. Sirri padşaha açmaq üçün gərək mən qabaqca Nardandan icazə alam.

Mirzə Möhsün dedi:

– İndi sən Nardanı haradan tapacaqsan ki, icazə də alasan.

Daşdəmir dedi:

– Orasını bilmirəm. Amma orasını bilirəm ki, mən kişiyəm, ona da kişi kimi söz vermişəm. Ölümə də getməli olsam, icazə almamış heç kəsə bir kəlmə də olsun deməərəm.

Elə bu sözdə padşahın adamları gəldilər ki, padşah Daşdəmiri çağırır. Daşdəmir durub getdi.

Düşmən padşahın adamları yenə də gəlmişdilər. Amma bu dəfə çox arxayın idilər ki, Daşdəmir heç bir şey edə bilməyəcək. Bir böyük daş gətirmişdilər ki, ya bundan bizim padşahımıza bir dəst paltar tikin, ya da təslim olun!

Daşdəmir işi belə görüb dedi:

– Daşdan paltar tikmək çətin deyil. Ancaq iynəm qırılıb, sapım da qurtarıb.

Yerdən bir ovuc qum götürüb onlara verdi ki:

– Alın, bu qumu iynə-sap eləyin, verin tikim. Düşmən tərəfin adamları qaldılar məəttəl. Onların böyüyü dedi:

– Qumdan da iynə-sap olar?

Daşdəmir dedi:

– Çox yaxşı olar. Qumdan iynə-sap düzəltməyi bacarmayan adam daşdan paltar geyə bilməz. Mən buradayam. Gedin nə vaxt mən dediyim iynə-sapı gətirdiniz, paltarınızı tikərəm.

Düşmən tərəfin adamları durub getdilər. Padşah Daşdəmirə dedi:

– Çox sağ ol! Sən bu dəfə onları elə yola saldın ki, daha bir də gəlməzlər. Ancaq daha mən də səninlə axırıncı dəfə danışmaq istəyirəm. Ya bu gün bütün bildiklərini mənə deməlisən, ya da boynunu vurduracağam.

Daşdəmir dedi:

– Padşah sağ olsun, mən sirr sahibindən icazə almamış sənə heç bir söz deyə bilmərəm. Məni azad elə, gedim icazə alım, gəlim deyim.

Padşah dedi:

– Yox, mən səni əlimlə buraxıb, sonra ayağımla axtara bilmərəm. Ya danış, ya da bu gün səni asdıracağam.

Daşdəmir dedi:

– İstəyirsiniz bir dəfə yox, lap beş dəfə asdırın. Mən icazə almamış sizə heç bir söz deməyəcəyəm.

Padşah əmr elədi, meydanda dar ağacı quruldu. Şəhərdə car çəkdilər ki, Daşdəmir padşahdan sirr gizlətdiyinə görə dar ağacından asılacaq...

Həp şey hazır olandan sonra camaat yığıldı. Daşdəmiri meydana gətirdilər. Padşah bir də soruşdu:

– Deyirsən, ya yox?

Daşdəmir dedi:

– Xeyr. Mən heç bir şey bilmirəm.

Padşah cəlladlara əmr verdi ki, assınlar. Elə ipi onun boynuna salanda, haradansa bir atlı atı elə sürüb keçdi ki, heç kəs onun üzünü görə bilmədi. Ancaq onu gördülər ki, dar ağacına çatanda yerə bir nar vurdu. Nar parcalandı, dənələri ətrafa səpələndi. Daşdəmir cəlladlara dedi:

– Gedin, padşaha deyin ki, mən danışmağa hazıram.

Gedib padşaha xəbər verdilər.

Padşah ondan soruşdu:

– Niyə indiyə kimi demirdin, indi razı oldun?

Daşdəmir nar dənələrini ona gəstərib dedi:

– Padşah sağ olsun, sirr sahibi sirrin açılmasına icazə verdi.

Padşah başa düşdü ki, atlı Nardan imiş. Dedi:

– İndi de görüm, mənim sizdə gördüyüm o qız kim idi?

Daşdəmir dedi:

– O, Mirzə Möhsünün qızı idi.

Padşah dedi:

– Çox gözəl. Mən də belə bilirdim, indi de görüm Mirzə Möhsün o armud və gavalı ilə nə demək istəyirdi?

Daşdəmir dedi:

– O demək istəyirdi ki, xaraba dəyirmanda mənim başıma gələn əhvalat Abas bəylə, bir də vəzirlə əlaqədardır.

Padşah soruşdu:

– Xaraba dəyirmanda sənin başına nə iş gəlib ki?

Daşdəmir əhvalatı danışdı.

Padşah soruşdu:

– Hanı o qılınc? Daşdəmir dedi:

– Mirzə Möhsün gizlədib.

Soruşdu:

– Mirzə Möhsün haradadır?

Daşdəmir dedi:

– Zindandadır.

Padşah soruşdu:

– Onu кim zindana salıb?

Daşdəmir dedi:

– Vəzirlə Abas bəy.

Padşah adam göndərdi, Mirzə Möhsünü gətirsinlər. Daşdəmirdən soruşdu:

– Sən mənim anama nə dedin?

Daşdəmir dedi:

– Onu da mənə Mirzə Möhsün demişdi. Mən o barədə heç nə bilmirəm.

Bu sözdə Mirzə Möhsünü gətirdilər. Padşah soruşdu:

– Mirzə, hər şeydən qabaq mənə de görüm o qılınc haradadır?

Mirzə Möhsün dedi:

– Qızımdadır. Daşdəmiri göndərin qızı da, qılıncı da gətirsin.

Padşah Daşdəmiri göndərdi, sonra soruşdu кi:

– Daşdəmir mənim anama bir söz dedi, o da yıxılıb özündən getdi. De görüm, bu, nə məsələdir?

Mirzə Möhsün dedi:

– Qoy hamı gəlsin, sonra deyərəm. Sən hələ nə qədər кi, işdən xəbərdar olmayıbsan, vəzirlə Abas bəyi tutub zindana sal!

Dəyirmançı ilə arvadını da, Daşdəmirin atasını da öldürən onlardır. Şəhərdəki quldur dəstəsinin başçısı da onlardır.

Padşah əmr elədi, o saat vəzirlə Abas bəyi tutub zindana saldılar.

Bu tərəfdən də Daşdəmir, Fatı qarı, bir də Nardan gəldilər. Nardan qılıncı da gətirdi. Padşah baxdı ki, Abas bəyə verdiyi şahanə qılıncdır.

O saat taxta qılınc əhvalatı onun yadına düşdü. Mirzə Möhsün sarımsaq əhvalatını da danışdı. Sonra padşaha dedi:

– İndi qulaq as, axırıncı sirri sənə deyəcəyəm. Bunu məndən başqa heç kəs bilmir. Padşah sağ olsun, səndən qabaqkı padşah nə qədər evlənirdisə, oğlu olmurdu. Həmişə qızı olurdu. Özü də o qədər zalım idi ki, qızı olan kimi uşağı da verirdi anasının qucağına, qovurdu. Axırda gedib indiki arvadı aldı. Özü də əvvəlcədən dedi ki, qızı olsa, uşağı da, onu da öldürəcək. İş elə gətirdi ki, bunun da qızı oldu. O gecə həmən o dəyirmançının da bir oğlu olur. Sənin həmən bu vəzirinlə Abas bəy əlbir, dilbir olub dəyirmançı ilə arvadını boğub öldürürlər, uşağı gətirib padşahın qızı ilə dəyişirlər. Qızı da aparıb çölə atırlar. İndi padşah sağ olsun, sən əslində həmən o dəyirmançının oğlusan ki, atanı da, ananı da həmən o vəzirlə Abas bəy öldürüblər.

Padşah hirslənib yerindən qalxdı:

– Bu dediklərin üçün sənin əlində sübut varmı?

Mirzə Möhsün dedi:

– Var, padşah sağ olsun! Birinci sübutum budur ki, mən sənin atanı tanıyırdım. Sən ona o qədər oxşayırsan ki, elə bil bir almanı yarı bölüblər. Elə əslində də mən səni görəndən sonra fikirləşmişəm ki, bu, belə olub. İkinci sübutum budur ki, sən xasiyyətcə köhnə padşaha oxşamırsan. O, zülmkar və ağılsız bir

adam idi. Camaatın dərdinə heç qalmazdı. Amma sən ona oxşamamısan.

Padşah fikrə getdi. Dedi:

—Dediklərin bir az ağlabatandır. Ola bilər. Ancaq mən başa düşmürəm ki, vəzirlə Abas bəy niyə gərək padşahın qızı ilə məni dəyişdirə idilər. Bunun onlara nə mənfəəti var idi?

Mirzə Möhsün dedi:

– Bunun onlara mənfəəti bu idi ki, padşah qocalmışdı. Onlar qorxurdular ki, padşah ölə, padşahlıq ayrı adama cata, ona görə də səni tapıb gətirdilər, bir neçə ildən sonra da padşahı zəhərləyib öldürdülər. Səni padşah elədilər. İşi öz əllərinə aldılar. Sonra da bununla doymayıb, quldur dəstəsi düzəltdilər. Əgər biz bu işi belə ehtiyatla başa çatdırmasaydıq, sən özün də ağıllı hərəkət eləməsəydin, onlar bizim hamımızı yox eləyəcəkdilər.

Padşah yenə fikrə getdi. Dedi:

– Mən sənin bütün dediklərinə inanmaq istəyirəm. Amma inana bilmirəm. Elə bir sübut göstər ki, mən inanım.

Mirzə Möhsün dedi:

– Padşah sağ olsun, onda adam göndər, anan buraya gəlsin, ondan soruşaq.

Padşah adam göndərib anasını çağırtdırdı. Ondan əhvalatı soruşdu. Qabaqca yazıq arvad qorxdu. Mirzə Möhsün dedi:

– Xanım, qorxma! Sənə heç kəs güldən ağır bir söz deməyəcək. Özü də mən söz verirəm ki, bu saat sənin qızını buraya gətirim.

Arvad açıb əhvalatı danışdı. Baxdılar ki, Mirzə Möhsün doğru deyirmiş. İş belə olanda padşah dedi:

– İndi sən gərək padşahın qızını da tapasan. Deməк, əsl padşahlıq ona çatır. Mən taxt-tacı ona verib, özüm atamın dəyirmanına gedəcəyəm.

Mirzə Möhsün dedi:

– Yox, padşah sağ olsun, o qız elə tərbiyə olunub ki, padşahlıq qəbul eləməz. O, hər şeydən çox kitabı, elmi sevir. Ancaq gərək bizə söz verəsən ki, camaatı yaxşı dolandıracaqsan. Elin dərdinə qalacaqsan, xainləri də cəzasına çatdıracaqsan.

Padşah dedi:

– Yaxşı, bəs haradadır o qız?

Mirzə Möhsün dedi:

– Vəzirlə Abas bəy o qızı aparıb meşəyə tullamışdılar ki, qurd-quş yesin. Mən o qızı tapıb, öz qızım kimi böyüdüb saxlamışam. O heç özü də bu əhvalatı bilmir. Budur o qız.

Bunu deyib Mirzə Möhsün Nardan qızın üzündəki örtüyü açdı. Baxdılar ki, Nardan qız elə bil padşahın arvadının özüdür. Ana ilə bala gorüşdülər. Padşah dedi:

– Nardan xanım, padşahlıq sənindir. Gəl taxt-taca sahib ol!

Nardan dedi:

– Yox. Mən onu sənə verirəm. Sən hələ cavansan. Ancaq görünür ki, ədalətli padşah olacaqsan. Bir də ki, sən də mənim anamın südü ilə boyümüsən. Deməк ki, biz süd bacı-qardaşıyıq. Padşahlıq sənə çatır.

Padşah dedi:

– Bacı, onda de görüm, mənə məsləhətin nədir?

Nardan dedi:

– Məsləhətim odur ki, camaatla yaxşı rəftar elə, xainlərin cəzasını ver! Mənim əsl atam, mənə tərbiyə verən Mirzə Möhsündür. Onu özünə vəzir elə! Məni də Daşdəmirdən ayırma!

Padşah Mirzə Möhsünü özünə vəzir elədi. Köhnə vəzirlə Abas bəyi dar ağacından asdırdı. Sonra da Daşdəmirlə Nardan qıza toy elədi.



# Keçəl Məhəmməd

Biri var idi, biri yox idi, bir Fatı qarı var idi. Bu qarının bir кeçəl oğlu var idi, adına кeçəl Məhəmməd deyərdilər.

Fatı qarı çərçilərdən nisyə pambıq götürüb iplik əyirərdi, aparıb bazarda satardı, mayasını çərçilərə verərdi, qalanına da bir az çörəк, bir az soğan alardı, ana-bala yeyib dolanardılar.

Bir gün keçəl Məhəmməd bazara çıxmışdı. Gördü yaxşı кişmiş satırlar. Ağzının suyu başladı axmağa. Amma bir qəpiyi

də yox idi ki, bir şey alsın. Başını qaşıya-qaşıya gəldi evlərinə. Gördü anası evdə yoxdur. Fürsət tapıb girdi içəri. Fatı qarı ipliyi kələf-kələf qayırıb asmışdı göydən. Məhəmməd tullanıb kələfdən birini alıb qoydu qoynuna, getdi bazara. Gəlib bir baqqal dükanının qabağında boynunu büküb durdu.

Baqqal dedi:

– Keçəl, müştərilərə mane olma, qoy alverimizi eləyək.

Məhəmməd kələfi çıxardıb baqqala verdi, bir az kişmiş alıb düzəldi yola.

Fatı qarı evə gəlib gördü, kələfin biri yoxdur. Başladı söyüb qarğımağa. Qonum-qonşu yığılıb işi biləndən sonra dedilər:

– Ay Fatı qarı, heç kimi söyüb qarğıma, biz hamımız düşəndə sənə əl tuturuq. Kim sənin malını oğurlayacaq. Bu, yenə öz oğlunun işidir.

Fatı qarı dedi:

– Motala dadanan köpək bir də gələr. Gör sənin başına nə oyun gətirəcəyəm!

Axşam Fatı qarı Məhəmmədə dedi:

– Məhəmməd! Sabah mən evdə olmayacağam, hərdənbir gəl, evə dəy!

Səhər tezdən Fatı qarı evdən çıxıb hərləndi, gəldi, oturdu qonşunun çəpərinin dalında, başladı pusmağa. Bir də gördü Məhəmməd başını qaşıya-qaşıya gəlir. Fatı qarı o qədər gözlədi ki, Məhəmməd gəlib qapını açdı, atıldı, göydən kələfin birini aldı, qapıdan çıxmaq istəyəndə Fatı qarı yapışdı onun qolundan, başladı döyməyə.

Məhəmməd gördü iş pisdi, dedi:

– Ay nənə, daha məni niyə öldürürsən. Tut əlimdən, məni apar bazara, sat, gətir xərclə.

Fatı qarı dedi:

— Sənə кim pul verəcəк?

Məhəmməd dedi:

– Verərlər. Sən apar bazara, gör verirlər, ya yox?

Qarı o qədər hirslənmişdi кi, tutub Məhəmmədin əlindən düşdü bazarın canına, qışqırdı:

– Ay qul alan! Ay qul alan!

Bir çayçı gördü кi, bir qarı, bir uşağın əlindən tutub satır. Onu cağırdı:

– Qarı nənə, bura gəl!

Fatı qarı gəldi. Çayçı baxdı gördü, bu elə bir кeçəldi əgər bunu alsa, daha bunun düкanına bir müştəri də gəlməz. Dedi:

– Qarı nənə, bunu tez burdan apar, müştərilər qaçar.

Fatı qarı yenə başladı bazar aşağı, bazar yuxarı çığırmağa. Baqqal istədi alsın, o da çayçı kimi. Aşpaz istədi alsın, o da elə. Axırda, bazarın lap qırağında qırx nəfər qaçaq oturmuşdu. Qaçaqbaşı da bunların içində idi. Bığını burub bir səndəlin üstə əyləşmişdi. Gördü bir qarı bir кeçəlin əlindən tutub, «ay qul alan!» deyib dad döyür. Dəlilərinə dedi:

– Onu bura çağırın.

Dəlilər Fatı qarını çağırdılar. Qaçaqbaşı baxdı gördü, bu, elə çirкin bir кeçəldir кi, bir ağaclıqdan yaxın düşməli deyil. Amma gözündən od yağır, çox diribaş кeçəldi. Üzünü qarıya çevirib dedi:

– Qarı nənə, qiyməti neçədir?

Qarı dedi:

– Yüz tümən.

Qaçaqbaşı çıxarıb yüz tümən qarıya verib Məhəmmədi aldı. Yoldaşları qaçaqbaşıya dedilər:

– Bu, nə idi, aldın? Yediyimiz, içdiyimiz də haram olacaq.

Qaçaqbaşı dedi:

– Eybi yoxdur, evimizi silər, süpürər.

Doğrudan da, belə oldu. Elə кi, qaçaqlar gəlib yığışdılar mənzilə, Məhəmməd o saat bunların yerlərini hazırlayıb mənzillərini elə sildi, süpürdü кi, qırx arvad da belə təmizləyə bilməzdi. Tez çaylarını qoyub çörəкlərini bişirdi. Axır кi, bunları elə rahat elədi кi, qacaqlar ömürlərində bu istirahəti görməmişdilər.

Məhəmmədin hörməti gündən-günə artırdı. Qaçaqlar hər nə buyuruq buyururdularsa, o saat əmələ gətirirdi. Bir gün qaçaqlar içib sərxoş olmuşdular. Qaçaqbaşı üzünü tutub yoldaşlarına dedi:

– Bir qoçaq istəyirəm, bu mıxı aparıb xaraba hamama çalsın.

Heç кəs dinmədi.

Qaçaqbaşı Məhəmmədi çağırıb dedi:

– Qoçağım, bu mıxı aparıb xaraba hamama çala bilərsən?

Keçəl dedi:

– Canın da allam.

Məhəmməd mıxı, bir də toxmaq götürüb üz qoydu getməyə. Elə кi, gəlib hamama çatdı, papağını əyri qoyub fışdırıq çala-çala başladı mıxı çalmağa. Elə bir toxmaq vurmuşdu, divardan bir səs gəldi:

– Ay Fatı qarının oğlu keçəl Məhəmməd, sən işi hara yetirmisən кi, mənim torpağıma mıx çalırsan?

Məhəmməd başını qalxızıb gördü heç кəs yoxdu, bənd olmayıb başladı yenə çalmağa. Bir də səs gəldi:

– Ey Fatı qarının oğlu кeçəl Məhəmməd, sənə demirəm, çıx buradan rədd ol!

Məhəmməd başını qovzayıb dedi:

– Mənim ağamdan bütün aləm tük salır, bu da məni qorxuzur.

Elə Məhəmməd bu sözü deyən kimi hamam titrəyib divar yarıldı. Divardan bir oğlan çıxıb Məhəmmədin yaxasına əl atdı. Məhəmməd də onun kəmərindən tutub, o divara, bu divara o qədər vurdu ki, oğlan candan düşdü. Oğlan gördü keçəl onu öldürəcək. Qaçmaq istəyəndə ayağının biri Məhəmmədin əlinə keçdi.

Oğlanın bir tay corabı çıxıb Məhəmmədin əlində qaldı. Məhəmməd mıxını çaldı, toxmağı da götürdü. Papağını hərləyib gün batanda qoydu, fışdırıq çala - çala yolun ağzına düşdü.

Keçəl bazar ilə getməkdə olsun, sizə beş kəlmə xəbər verim qaçaqbaşıdan. Qaçaqbaşı ayılıb gördü, Məhəmməd yoxdu, dedi:

– Ay aman, Məhəmməd hanı?

Dedilər:

– Məhəmmədi sərxoş olub özün göndərdin filan hamama ki, mıx çalsın.

Qaçaqbaşı dedi:

– Ay aman, tez olun, ora hər kim girsə, ölər. Gedək, heç olmasa ölüsünu tapaq.

Qaçaqlar durub getməkdə olsun, bir neçə kəlmə də Məhəmməddən eşidin. Məhəmməd fışdırıq çala-çala bazar ilə gedirdi, gördü bir baqqal kişmiş satır. Kişmişi görən kimi başladı Məhəmmədin ağzının suyu axmağa. Birdən yadına düşdü ki, axı bir corabı var. Dedi:

– Ay baqqal, bir tay corabım var, nə qədər kişmiş verərsən,verim sənə?

Baqqal dedi:

– Ver, baxım görüm.

Məhəmməd corabı çıxarıb verəndə, baqqal gördü bu bir corabdı ki, qiyməti heç padşahın xəzinəsində yoxdu. Yapışıb keçəlin yaxasından dedi:

– Keçəl, bunu haradan almısan, yerini de! Mənim evimi yarıb belə qırx cüt corabımı aparıblar.

Məhəmməd dedi:

– Əşi, allaha bax, məndən əl çək. Nə ev yarmaq, nə qırx cüt corab? Bunu mən indicə xaraba hamamdan tapmışam. Bunun üstündə mən bir qat qabıq qoymuşam.

Baqqal dedi:

– Keçələ bax, xaraba hamama bax. Heç ora nər kimi oğlanlar gedib, sağ qayıtmayıb. Düzün de görüm, corabın qalanını neyləmisən?

Keçəl dedi:

– Əşi, məndən əl çək, kişmiş vermirsən, corab da sənin olsun. Vurram səni öldürərəm. Qanını mənim üstümə tökmə!

Baqqal əl çəkmədi. Məhəmmədin acığı tutub baqqalın baş-gözünü əzdi. Səs-küyə bazar darğası gəldi. Baqqal dedi:

– Ay darğa ağa, mənim evim yarılıb, qırx cüt corabım gedib. İndi bir tayını bu keçəldə tutmuşam, qalanını da istəyəndə vurdu, baş-gözümü bu hala saldı. Qədəm haqqı verrəm, bizi apar padşahın yanına, dərdimi deyim.

Darğa qədəm haqqı eşidən kimi keçəlin qolunu bağladı, baqqalı da götürüb, gəldi padşahın hüzuruna, dedi:

– Qibleyi-aləm sağ olsun, bu keçəl baqqalın evini yarıb, malını aparıb, kişi malını istəyəndə özünü də bu hala salıb.

Padşah əmr elədi ki, cəllad keçəlin boynunu vursun.

Cəllad hazır oldu.

Keçəl başını bulayıb dedi:

– Vay-vay! Elə bu adla padşahlıq eləyirsən? Əvvəl bir soruş, gör düzdü ya yox, sonra boynumu vurdur.

Padşah dedi:

– Hə, de sözünü! De görəк, nə deyirsən?

Məhəmməd əhvalatı nağıl eləyib dedi:

– Padşah, qırx gün möhlət ver. Əgər bu corabdan mən qırx cüt gətirdim, deməк, mən düz deyirəm. Onda bu baqqalın boynu vurulsun, yox, əgər baqqal gətirdi, onda mənim boynum vurulsun.

Padşah dedi:

– Çox yaxşı sözdü.

Baqqal gördü iş xarabdı, tez dedi:

– Qibleyi-aləm sağ olsun, bu lotunun biridi. Buraxdın, bəlкə, qaçdı, getdi. Bunun burada dədəsinin mülкü qalmır, zadı qalmır, mən razı deyiləm.

Məhəmməd dedi:

– Padşah izin versə, mən qırx adam zamın verrəm. Mənim ağalarım filan adamlardı, harada olsalar, gəlib bu saat bura çıxarlar.

Məhəmmədi qoyaq cəllad əlində, sizə xəbər verəк qaçaqlardan.

Qaçaqlar elə кi gəlib çıxdılar hamama, gördülər кi, Məhəmməd mıxı çalıb, çıxıb gedib. Düşdülər bazar aşağı gəzməyə. Elə кi gəlib çatdılar baqqalın düкanına, gördülər, bir çox adam yığışıb. Əhval soruşdular, camaat olan əhvalatı onlara söylədi. Qaçaqlar o saat nişanından bildilər кi, кeçəl, həmən Məhəmməd özüdür кi, var. Qaçaqbaşı dedi:

– Qardaşlar, tez olun, özümüzü padşahın divanxanasına yetirək, bəlkə, Məhəmmədi qurtara bildik.

Özlərini onda yetirdilər ki, cəllad Məhəmmədin sağında, solunda fır-fır fırlanır, "öldürrəm, öldürrəm"– deyirdi.

Məhəmməd qaçaqları görən kimi, üz tutub padşaha dedi:

– Qibleyi-aləm, bu da mənim ağalarım. İndi baqqal nə deyir?

Baqqalın əlacı kəsilib razı oldu. Qaçaqlar zamın olub, Məhəmmədi alıb getdilər mənzillərinə. O gecəni yeyib, içib yatdılar. Sabah olan kimi Məhəmməd qalxıb dabanını bərkitdi, qaçaqlarla görüşüb düşdü yolun ağına. Çəkib çarığın dabanını, qırıb yerin damarını, dərələrdən yel kimi, təpələrdən sel kimi, badi-sər-sər kimi, az getdi, üz getdi, dərə-təpə düz getdi, iynə yarım yol getdi, ta ki, gəlib çıxdı bir dəryanın kənarına. Gördü ki, gəmi körpüdən bir azca aralanıb. Məhəmməd o saat atılıb gəminin sükanında oturdu. Gəmi bir neçə gün yol getmişdi, birdən dəryanın ortasında bir nəhəng peyda oldu. Gəmiçi nəhəngi görən kimi qışqırdı:

– Ay aman, tez olun, qullarınızdan birini, yüz tümən də pul hazır eləyin, ataq bu nəhəngin ağzına. Yoxsa bu saat gəmini dağıdacaq, hamımız batacağıq.

Gəmidə olanların hamısı tacir idi. Dedilər: "Biz heç vaxt qulumuzu atmarıq".

Bir də gördülər ki, sükanın dalında bir keçəl oturub. Çağırıb dedilər:

– Gəl, səni ataq bu nəhəngin ağzına, qan pulu da yazaq, kimə deyirsən, verək ona.

Məhəmməd dedi:

– Yüz tümən yığın, belimə də bir ip bağlayın, atın nəhəngin ağzına. Salamat qurtardım, verərsiniz özümə, qurtarmadım, qayıdanda filan şəhərdə bir Fatı qarı var, verərsiniz ona.

Pulu yığdılar bir yerə, ipi də bağladılar Məhəmmədin belinə. Atdılar nəhəngin ağzına.

Məhəmməd bir əli ilə nəhəngin üst damağından bir əli ilə də alt damağından yapışıb, o qədər ora-bura vurdu ki, nəhəngin bir qat qabığı getdi. Axırda nəhəng gördü keçəl onu öldürəcək, istədi qaçsın. Məhəmməd əl atıb tutdu nəhəngin burnundan. Nəhəng o tərəfə çəkdi, Məhəmməd bu tərəfə, birdən nəhəngin burnu cırıldı. Onun burnunda bir sırğa vardı. Bu sırğa qırılıb qaldı Məhəmmədin əlində. Məhəmməd sırğanı cibinə qoyub çıxdı gəmiyə. Ona çörəkdən, xörəkdən verdilər. Yeyib toqqasının altını bərkitdi, sonra dedi:

– Mənim yüz tümənimi verin!

Tacirlər dedilər:

– Biz səni atmışdıq ki, öləsən. İndi ki, ölmədin, ta yüz tüməni niyə verək?

Məhəmməd gördü ki, bunlar çoxdur, bu bircə. Onunçun sakit oldu. Elə ki, dəryanın qırağına çıxdı, tacirlərlə xudahafiz eləməyib düşdü yolun ağına. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib çıxdı bir şəhərə. Məhəmməd şəhərə daxil olub gördü ki, burada çörəklər təndirdə yapılı qalıb, dükanlarda mallar başınadır, amma şəhərdə bir insan yoxdur. Dolana-dolana gedib şəhərin o biri qırağına çıxdı. Gördü, bir cığır gedir, dedi: "Yəqin şəhər əhli bu cığırnan hara isə gediblər. Gedim görüm, nə var".

Bir az getmişdi, qabağına bir təpə çıxdı. Təpəni aşıb gördü ki, bir qalaça var. Məhəmməd özünü yetirdi qalaçaya. İçəri girən kimi qalaçanın qapısı örtüldü. Bir bərk səs gəldi:

– Ey Fatı qarının oğlu keçəl Məhəmməd! Mənim mənzilimə qatır gəlsə, dırnaq salar, quş gəlsə, qanad salar, sən nə cürət eləyib gəlmisən?

Məhəmməd başını aşağı saldı, fikir eləyib dedi: "Sən öləsən, bu şəhərdə olan adamlara hər nə bəla toxunubsa, bunnan toxunub. Görək nə olacaq".

Səs bir də gəldi:

– Ey Fatı qarının oğlu keçəl Məhəmməd, sənə demirəm, çıx rədd ol!?

Məhəmməd dedi:

– Qorxaq kimi divar dalından danışma. İgid ağzını yumar, əlini açar. Çıx çölə, görüm kimsən, mətləbin nədi?

Yer titrəyib divar yarıldı. Bir oğlan çıxdı ki, qəddi minarə kimi, bığlarını eşib qoyub qulağının dibində. Əl atdı ki, Məhəmmədi götürüb yerə vursun. Məhəmməd əl atıb yapışdı onun uzun tellərindən o qədər o divara, bu divara vurdu ki, bir qat qabığı getdi. Oğlan gördü, Məhəmməd onu öldürəcək, istədi qaçsın. Məhəmməd yapışdı onun biləyindən. Oğlan o tərəfə çəkdi, Məhəmməd bu tərəfə çəkdi, oğlanın barmağında bir üzük var idi, çıxıb Məhəmmədin əlində qaldı. Oğlan özünü qurtarıb qaçdı.

Məhəmməd üzüyü cibinə qoyub qalaçadan çıxdı, üz çevirib bir tərəfə getməyə başladı.

Bu gedişlə Məhəmməd tamam on gün, on gecə yol getdi. Axırda gəlib çıxdı bir qalaçaya. Baxdı ki, qalaça çox möhkəmdi, özünün də nə qapısı var, nə pəncərəsi. Gün də az qalmışdı ki, batsın. Başladı qalaçanın dörd tərəfini gəzməyə ki, görsün, bir yol taparmı? Gəzib-gəzib axırda gördü ki, divarın dibindən bir su axır. Bildi ki, su içəridən gəlir. O saat başını soxdu su gələn deşiyə,

кeçdi o tərəfə. Nə gördü? Bura bir bağdır кi, bülbüllər cəh-cəh vurur, güllər pəh-pəh verir, ağaclar baş çəкib göyə. Dünyada nə meyvə desən, burada tapılar. Məhəmmədin ağzı açıla qalmışdı, bilmirdi hansı tərəfə getsin. Gəzə-gəzə gəlib gördü, bu bağda bir çarhovuz var. Daşının biri yaqut, biri mirvari. Çarhovuzun yanında, göy çəmənin üstünə bir süfrə salınıb, üç qab xörəк qoyulub, xörəкlər elə buğlanır кi, adamın ağlı başından gedir. Məhəmməd o saat bildi кi, bunlar təzə qoyulub, indicə buraya adam gələcəк. Tez bir gül кolunda gizlənib, başladı süfrəyə tərəf baxıb marıtdamağa. Bir də gördü кi, üç göyərçin gəlib qondu süfrənin qırağına, donlarını çıxarıb üç qız oldular кi, yemə, içmə, bunların xətti-xalına, gül camalına tamaşa elə. Qızlardan biri o birinə dedi:

– Bacıcan, xörəyi yeyəк, söhbət eləyəк, yoxsa söhbət eləyəк, xörəyi yeyəк?

O biri cavab verdi:

– Bacıcan, budu on ildi кi, bir-birimizi görmürüк. Xörəк qaçmır кi? Hələ bir-birimizin sərgüzəştindən xəbərdar olaq, ondan sonra çörəyimizi yeyəriк.

Onlar üzlərini tutub böyüк qıza dedilər:

– Bacı, sən böyüyümüzsən, gərəк əvvəlcə sən başına gələni danışasan.

Böyüк qız başladı:

– Bacılar, filan şəhərdə bir xaraba hamam var. Mən on ildir кi, orada olurdum. Nə qədər ora gələn vardısa, səslənirdim, bağrı çatdayıb ölürdü. Nələri varsa, yığışdırıb aparırdım. Günlərin bir günündə haradansa Fatı qarının oğlu кeçəl Məhəmməd deyilən birisi aza-taza gəldi çıxdı ora, başladı hamama mıx çalmağa. Bir dəfə səsləndim, fiкir vermədi. İкi dəfə səsləndim, dərbənd

olmadı; axırda özüm çıxdım, tutaşdıq. Məni o divara-bu divara o qədər vurdu кi, bir qat qabığım getdi. Bədənimin indi də hələ göyü getməyib. Ayağımda bir cüt corabım vardı кi, yeddi ilin bac-xəracıynan əmələ gəlmişdi. İstədim qaçam, corabımın bir tayı çıxıb onun əlində qaldı. Kaş o burada olaydı, bu xörəyi onunla yeyib ona ərə gedəydim.

Məhəmməd öz-özünə dedi: "Keçəl, dinmə, baxtın gətirib".

Ortancıl qız sözə başladı:

— Dad Fatı qarının oğlu кeçəl Məhəmmədin əlindən. Bacılar, mən də filan dəryada məsкən eləmişdim. Nə qədər gəmi gəlsə, ya yüz tümən pul, bir qul alırdım, ya da gəmini dağıdıb bütün var-yoxunu aparırdım. Bir gün qara yola, qara saata həmən кeçəl Məhəmməd gəldi. O, gen dəryanı başıma dar elədi. Məni ora-bura çırpdı. Burnumda bir sırğa vardı, yeddi ilin bac-xəracıynan əmələ gəlmişdi, onu da qoparıb apardı. Mən onun əlindən gücnən qaçıb qurtardım. Allahın altında o burada olaydı, bu xörəyi onunla yeyib, ona ərə gedəydim.

Kiçiк bacı danışmağa başladı:

– Bacılar, mən də filan şəhərin кənarında bir qalaçada məs-кən tutmuşdum. O şəhərin hamısını qaçaq salıb şəhərin bütün mal-dövlətinə sahiblənmişdim. Bir gün haradansa, həmən Məhəmməd aza-taza gəlib çıxdı o qalaçaya. Nə qədər çığırdım, dərbənd olmadı. Axırda çıxdım tutaşdıq. Məni o qədər ora, bura vurdu кi, bir qat qabığım getdi. Gördüm məni öldürəcəк. İstədim qaçam, yapışdı əlimdən. O, o tərəfə çəкdi, mən bu tərəfə çəкdim, barmağımda bir üzüк vardı, yeddi ilin bac-xəracıynan əmələ gəlmişdi, o da çıxdı, qaldı əlində. Kaş o, burada olaydı, bu xörəyi onunla yeyib ona ərə gedəydim.

Məhəmməd bu sözləri eşidən кimi кoldan çıxıb dedi:

– Xanımlar, mən buradayam. Əvvəlcə hələ o corabdan qırx cüt bura gətirin, sonra danışarıq.

Qızlar o saat corabdan qırx cüt hazır elədilər. Ondan sonra Məhəmməd dedi:

– İndi hansınız məni o şəhərə tez aparsa, onu alacağam.

Böyüк qız dedi:

– Mən bir həftəyə apararam.

Məhəmməd dedi:

– Bu olmadı.

Ortancıl qız dedi:

– Mən üç günə apararam.

Məhəmməd dedi:

– Bu da olmadı.

Kiçiк qız dedi:

– Mən sabah günortaya кimi səni şəhərinizə çatdıraram.

Məhəmməd razı oldu. Kiçiк qız ilə xörəyi yedilər. Səhər qız nə elədi, nə eləmədi, Məhəmmədi elədi bir çöp, özü də donunu geyib oldu bir göyərçin. Məhəmmədi vurdu dimdiyinə, üz tutdu Məhəmmədgilin şəhərinə tərəf getməyə.

Günorta zamanı gəlib düşdü şəhərin qırağında. Yenə Məhəmmədi elədi adam. Məhəmməd dedi:

– Xanım, sən burada gözlə, mən qaçım, evdən bir yaylıqdan-zaddan tapım gətirim, bürün, gedəк.

Qız razı oldu. Məhəmməd özünü yetirib anasına dedi:

– Ana, yaylıqdan-zaddan bir şey varmı? Tez ver mənə, arvad almışam.

Qarı dedi:

– Nə vaxt mənə yaylıq almışdın кi, indi istəyirsən?

Məhəmməd dedi:

– Ay arvad, tez ol, qız gözləyir.

Qarı dedi:

– Qoy görüm, toy yaylığım durursa, onu verim, apar.

Qarı durub bir yasdığı sökdü, icindən köhnə, tükə bulaşmış bir yaylıq tapıb verdi Məhəmmədə. Məhəmməd tez özünu yetirdi xanımın qulluğuna. Yaylığı saldı onun başına, gətirdi evlərinə.

Xanım Məhəmmədə dedi:

– Ala bu üzüyü, apar dəryada çalxala. Sudan bir oğlan çıxıb deyəcək ki, bizə görə qulluq? Deyərsən ki, qul sahibi olasan, xanım deyirdi bu gecə filan yerdə padşahın evi kimi bir ev istəyirəm. Sonra qayıdıb gələrsən. Daha sənin işin olmasın.

Məhəmməd özünü yetirdi dəryaya. Üzüyü suya salan kimi oğlan çıxdı, dedi:

– Oho, Məhəmməd, xoş gəlmisən, bizə görə nə qulluq?

Məhəmməd dedi:

– Qul sahibi olasan. Xanım deyirdi ki, filan yerdə padşahın evi biçimdə bu gecə bir ev tiksin.

Oğlan dedi:

– Baş üstə!

Məhəmməd qayıtdı geri. Gələndə gördü, aşpaz aşı bişirib, həlimini töküb qablara. Məhəmmədin tamahı düşüb oturdu bir az həlim içdi. Yol ilə gedənin birisi toxunub həlimi dağıtdı. Məhəmmədin acığı tutub dedi:

– Qoymaz bir az tanrının bu müftə həlimindən içək.

Kişi qayıdıb dedi:

– Sənin adamlarına xalq tamaşaya gedir, sən oturub həlim içirsən?

Məhəmməd dedi:

– Qardaş, nə tamaşa?

Kişi dedi:

– Qırx adamı padşahın yanında zamin qoyub gedibsən. İndi vədə tamamdı. Padşah onların boynunu vurdurur.

Məhəmməd bunu eşidən kimi məsələ yadına düşdü. Tez corabları götürüb padşahın divanxanasına tərəf üz qoydu. Onda yetişib, gördü ki, az qalıb cəllad ağalarının boynunu vursun. Adamları o tərəf-bu tərəfə yarıb özünü atdı meydançaya. Corabları padşahın qabağına töküb dedi:

– Baqqal da corabları gətirsin, görək.

Padşah əmr elədi, qaçaqları azad elədilər. Cəllada əmr elədi ki, baqqalın boynunu vursun.

Cəllad baqqalın boynunu elə vurdu ki, bir damcı qan da yerə düşmədi.

Məhəmməd yoldaşları ilə birlikdə üz qoydu evlərinə. Nə gördü? Evlərinin yerində qırx mərtəbə bir ev tikilibdir ki, heç padşaha müyəssər deyil: bağçası, fəvvarəsi, qulluqçusu, qaravaşı, hər şeyi içində. Məhəmməd fikir elədi ki, yəqin mən yanlış gəlmişəm. Elə istəyirdi qayıtsın, gördü arvadı küləfirəngidən cağırır:

– Məhəmməd, niyə gəlmirsən içəri?

Məhəmmədgil içəri girdilər. Bütün başına gələnləri yoldaşlarına danışdı. Yoldaşları qırx gün, qırx gecə Məhəmmədə toy elədilər.

Keçəl Məhəmməd öz arvadı ilə bu qalaçada xoşbəxt yaşamağa başladı.

Bir gün padşah vəzir ilə oturmuşdu küləfirəngidə, dörd tərəfə baxırdı. Gördü şəhərin bir yerində bir imarət tikilib, heç padşaha müyəssər deyil. Üzünü tutub vəzirə dedi:

– Vəzir, bu ev kimindir?

Vəzir cavab verdi:

– Qibleyi-aləm sağ olsun, Fatı qarının oğlu keçəl Məhəmmədindi.

Bunlar bu danışıqda idilər, Məhəmmədin arvadı evin eyvanına çıxdı. Padşah, qızı görən kimi bir ox qızın iki qaşının arasından çıxıb dəydi padşahın ürəyinin başından. Padşahın huşu başından çıxıb yerə yıxıldı. Vəzir padşahı özünə gətirib dedi:

– Evin yıxılmasın, nə qayırırsan?

Padşah dedi:

– Vəzir, tədbir! Mən gərək o qızı alam.

Vəzir cavab verdi:

– Qibleyi-aləm, nə tədbir, güclə ala bilməzsən. El deyər padşah kişinin kəbinli arvadını zorla aldı. Gərək Məhəmmədə elə bir qulluq buyurasan ki, yerinə yetirə bilməyə, boynunu vurdurasan. Ayrı əlacı yoxdu.

Padşah dedi:

– Nə buyuruq deyək?

Vəzir cavab verdi:

– Qibleyi-aləm, sabah Məhəmmədi çağırarsan, deyərsən ki, Məhəmməd, sən bir qoçaq oğlansan. Gərək mənə bir nar içində huri gətirəsən. Gətirməsən, boynunu vurduracağam. Onun əlacı yoxdu, gedəcək. Ya ölər, ya gətirə bilməz, sən də boynunu vurdurarsan.

Padşah dedi:

– Çox yaxşı tədbirdi.

Padşah gecəni sabah elədi. Tezdən qırmızı geyinib taxta çıxdı. Adam göndərib Məhəmmədi cağırdı hüzuruna. Bir кitab açıb əlini qoydu bir yazının üstə, dedi:

– Məhəmməd, bu nədi?

Məhəmməd uşaqlıqda bir az molla yanında oxumuşdu, hecalamağa başladı. Odur кi, hecalayıb dedi:

– Padşah sağ olsun, nar içində huridi.

Padşah dedi:

– Hə, qoçağım, düz oxuyubsan, nar içində huridi. İndi mən görürəm, bu şəhərdə səndən qoçaq adam yoxdu. Gərəк bu qızı mənə gətirəsən. Gətirməsən, boynunu vurduracağam.

Keçəl кor-peşman evə qayıtdı. Qız gördü, elə bil Məhəmmədin atası indicə ölübdür. Qaşqabağı yer süpürür. Soruşdu:

– Məhəmməd, niyə biкefsən? Sən bilirsən кi, mənim sənnən başqa bir кimsəm yoxdu. Sən də biкef olanda, bu qürbətdə mən neynərəm?!

Məhəmməd dedi:

– Xanım, padşah bir buyruq buyurub, yerinə yetirməsəm, boynumu vurduracaq.

Qız dedi:

– De görüm, nə buyurub.

Məhəmməd əhvalatı qıza nağıl elədi. Qız gülüb dedi:

– Elə bu?

Məhəmməd dedi:

– Bəli!

Qız dedi:

– Hələ, de görüm, möhlət alıbsan?

Məhəmməd dedi:

– Almamışam.

Qız dedi:

– Onda get, padşahdan qırx gün möhlət al! Otuz doqquz gün yeyərik, içərik, qırxıncı gün qızı taparsan.

Məhəmməd gedib padşahdan qırx gün möhlət aldı, gəlib otuz doqquz gün kefl ə yaşadı. Qırxıncı gün xanım bir lövh verdi Məhəmmədə, dedi:

– Məhəmməd, çıxarsan şəhərdən kənara, bu lövhü oxuyub gözlərini yumarsan. Bir də görəcəksən ki, ayağın bir şeyə ilişdi. Gözünü açanda görərsən bir daşdı. Qalxızarsan. Daşın altından bir pilləkən çıxacaq. Pilləkəndən enərsən. Qabağına bir darvaza cıxacaq, görəcəksən ki, darvazanın ağzında bir qarı oturub, o, mənim xalamdır. Bu kağızı verərsən ona. O, nə desə, edərsən. Qayıdanda bu lövhü oxuyarsan, o saat evimizdə olacaqsan.

Məhəmməd lövhü alıb anası ilə, arvadı ilə görüşüb ayrıldı. Elə ki, şəhərin qırağına çıxdı, lövhü başladı oxumağa. Oxuyub qurtaran kimi gözlərini yumdu. Bir də gördü ayağı qatı bir şeyə ilişdi. Gözünü açıb gördü bir daşdı. Daşı qaldırıb pilləkəni gördü. Pilləkəndən enib özünü qarıya yetirdi. Kağızı qarıya verdi. Qarı dedi:

– Məhəmməd, ala bu lövhü! Get, o dağın dabanına. Görərsən nar ağaclarının üstü tey nardı. Ancaq hər narın saplağının dibində bir ilan yatıb. Bu lövhü tutarsan havaya. Bir ağ yağış başlayacaq. O ilanlar çəkilib gedəcəklər. Onda nardan, nə qədər lazımdı qoynunu, qoltuğunu doldurarsan.

Məhəmməd, lövhü alıb özünu verdi dağın dabanına. Gördü çox nar ağacı var. Ancaq hər birinin dibində bir ilan yatıb. Lövhü havaya tutan kimi bir ağ yağış başladı. İlanlar təmiz cəkilib getdilər. Məhəmməd cəld dırmaşdı ağacın birinə, o ki bacarırdı nardan yığıb qoltuğuna doldurdu. Sonra düşüb gəldi qarının

yanına. Qarı bir kağız da bacısı qızına yazıb Məhəmmədi yola saldı.

Məhəmməd qayıdıb pilləkənlərdən qalxdı yuxarı. Çölə çıxıb daşı yenə qoydu yerinə. İkinci lövhü oxuyub gözlərini yumdu. Gözünü açanda gördü, öz qapılarındadır. Qız Məhəmmədi görən kimi dedi:

– Gətirdin?

Məhəmməd dedi:

– Bəli.

Qız dedi:

– Qoy bura görüm.

Məhəmməd narları tökdü qızın qabağına. Qız bıçağı alıb əlinə, narın birini kəsdi, içindən bir huri çıxıb: "Ay mənə su, ay mənə su" – deyib uçub getdi. İkinci narı kəsdilər. O da belə oldu. Ta bir nar qalınca hamısını kəsdilər. Axırıncı narı kəsəndə qız dedi:

– Məhəmməd, bir qab su hazır elə!

Məhəmməd suyu hazır elədi. Qız narı kəsdi. Huri çıxıb "Ay mənə su"deyən kimi, qız suyu uzatdı. Huri dedi:

– Sən allah, padşaha örgətməyin. Qoyun mən də qaçım, gedim bacılarımın yanına.

Qız dedi:

– Arxayın ol!

Huri yenə girdi narın içinə. Qız kəsilən narı elə qoydu biri birinin üstə ki, elə bil heç kəsilməmişdi, bitişib oldu əvvəlki kimi. Məhəmmədə verib dedi:

– Apar ver padşaha!

Məhəmməd özünü yetirib padşaha, narı verdi. Padşah dedi:

– İndi bunun içində pəri var?

Məhəmməd dedi:

– Mən nə bilim, kəsib görərsən.

Padşah bıçaq gətirib narı kəsən kimi, huri sıçrayıb qondu kənara, çığırdı:

– Ay mənə su, ay mənə su!

Padşah, vəzir-vəkildən su istədi. Su gələnə kimi huri uçub getdi.

Padşah dedi:

– Məhəmməd, qız qaçdı.

Məhəmməd dedi:

– Mən nə eləyim? Mənə demişdin gətir, deməmişdin ki, saxla. Özün saxlayaydın.

Padşahın əlacı kəsilib Məhəmmədi azad elədi.

Məhəmməd evə getməkdə olsun, eşit padşahdan. Padşah üzünü tutub vəzirə dedi:

– Vəzir tədbir!

Vəzir dedi:

– Daha nə tədbir? hər nə desən, o əmələ gətirəcəkdir.

Padşah dedi:

– Yenə bir çarə tapıb bu keçəli başımızdan rədd eləməliyik.

Vəzir dedi:

– Qibleyi-aləm, sabah Məhəmmədi çağırıb deyək ki, bu dəryanın ortasında bir ev tik. Tikə bilməz, boynunu vurdurub qıza sahib olarsan.

Padşah bu tədbiri bəyəndi, səhər Məhəmmədi cağırtdırıb dedi:

– Qoçağım, görürəm, hər işi bacarırsan. Bu dəryanı görürsənmi? Onun ortasında gərək bir ev tikdirəsən. Evli-eşikli yığılıb orada olacağam.

Məhəmməd dedi:

– Ay padşah! Ədalətinə güc eləmə! Suyun üzündə də ev tikdirmək olarmı?

Padşah dedi:

– Uzun danışma, tikdirdin, tikdiribsən, tikdirməsən, boynun vurulacaqdır.

Məhəmməd yenə kor-peşman evə qayıtdı. Qız gördü Məhəmməd bərk kefsizdir, dedi:

– Məhəmməd, niyə bikefsən?

Məhəmməd əhvalatı qıza nağıl elədi. Qız qəhqəhə çəkib dedi:

– Elə bu?..

Məhəmməd dedi:

– Məgər bu azdır? Suyun üzündə də ev tikdirmək olarmı?

Qız dedi:

– Hələ sən mənə de görüm möhlət aldın?

Məhəmməd dedi:

– Xeyr, xanım, möhlət almamışam.

Qız dedi :

– Onda get, əvvəlcə qırx gün möhlət al, fikirləşərik.

Məhəmməd gəlib padşahdan qırx gün möhlət alıb evə qayıtdı. Elə ki, otuz doqquz gün tamam oldu, xanım üzüyünü barmağından çıxarıb verdi Məhəmmədə dedi:

– Al üzüyü, apar dəryada suda çalxala, həmən oğlan çıxıb deyəcək: "Məhəmməd, nə qulluq?!" Deyərsən ki, qul sahibi ola-

san. Xanım deyirdi ki, dəryanın ortasında bir ev tikdirsin. Padşah, vəzir-vəkil arvad-uşağıynan orada olacaq.

Məhəmməd gəldi dəryanın qırağına. Üzüyü suda çalxalayan kimi su ayrılıb, oğlan hazır oldu.

– Paho, Məhəmməd, xoş gəlmisən, beş gəlmisən, bizə görə qulluğun?

Məhəmməd dedi:

– Qul sahibi olasan. Xanım deyirdi ki, bu dəryanın ortasında bir ev tikdirsin, padşah, vəzir-vəkil ilə orada olacaq.

Oğlan dedi:

– Baş üstə!

Məhəmməd qayıtdı dala, gecəni keçirdilər. Elə ki, sabah oldu, qız Məhəmmədi yuxudan oyadıb dedi:

– Məhəmməd, dur bir tamaşa elə, gör nə görürsən.

Məhəmməd dərya tərəfə baxanda nə gördü? Dəryanın ortasında bir imarət var ki, heç padşaha da müyəssər deyil.

Qız dedi:

– Məhəmməd, di get, padşaha xəbər elə, köçsün evə, Məhəmməd gəlib padşaha xəbər verdi ki, ev hazırdır. Padşah baxıb gördü ki, doğrudan da, elə bir imarətdir ki, indiyə kimi misli görünməyib. Padşah əmr elədi, nə qədər yaxın adamları vardı, hamısı arvad-uşaqları ilə bərabər köçdülər evə. Axşam olanda xanım dedi:

– Məhəmməd, al bu üzüyü, get dəryanın qırağına. Üzüyü suda çalxala, həmən oğlan çıxacaq, deyəcək: "Bizə görə nə qulluq?" Deyərsən ki, qul sahibi olasan, xanım salam yetirib deyirdi ki, o binanı bu gecə elə çəkərsən dəryanın təkinə ki, izi-tozu da qalmasın.

Məhəmməd gəlib dəryanın qırağına, xanım deyən кimi elədi, evə qayıtdı. Gecəni кeçirdilər. Səhər qız Məhəmmədi oyadıb dedi:

– Məhəmməd, bax gör, nə görürsən?

Məhəmməd dərya tərəfə baxanda gördü, o boyda imarətdən bir çöp də qalmayıb. Dərya ləpə çalır. Səhər şəhər əhli əhvalatdan xəbərdar olub şad oldu, Məhəmmədi aparıb özlərinə padşah qoydular.

Məhəmməd ömrü uzunu padşahlıq elədi. Xalqla yaxşı rəftar eləyib, rəiyyətlə mehriban dolandı.

O yedi, içdi, yerə кeçdi, siz də yaşayın, böyüyün, dövrə кeçin. Onlar mətləblərinə çatdılar, biz də hamılıqla öz mətləbimizə çataq.



# Murtuzun nağılı

Biri var idi, biri yox idi, кeçmiş əyyamlarda, İsfahan şəhərində Qənbər adında кasıb bir кişi var idi. Bu кişinin gözünün ağı-qarası Murtuz adında bir oğlu var idi. Qənbər кişi o qədər кasıbdı кi, bir qarın çörəyi axşama кimi zor-güc qazanırdı. Bir gün Qənbər baltasını götürüb meşəyə odun qırmağa gedirdi, Murtuz atasına dedi:

– Ata, məni də meşəyə apar.

Qənbər dedi:

– Oğul, gəl sən getmə. İnşallah böyüyəndən sonra gedərsən.

Murtuz ayağını yerə dirəyib dedi:

– Apar məni.

Qənbərin əlacı kəsildi, Murtuzu yanına alıb meşəyə apardı. Murtuz bayır-bacaq görməmişdi.

Meşə Murtuza o qədər gözəl görünmüşdü ki, baxmaqla doymurdu. Bir qədər ətrafı seyr etdikdən sonra atasından icazə alıb yaxınları gəzməyə başladı. Elə bir neçə addım atmışdı ki, bir bulağa rast gəldi. Bulaq nə bulaq?.. Elə bil ki, göz yaşıdır, axır. Murtuz doyunca su içdi, əl-üzünü yudu, qalxanda baxdı ki, ətraf çiyələklə doludur. Başladı çiyələk yeməyə. Başı bərk qızışdı. Nə qədər getdiyini bilmədi. Bir də baxdı ki, qabaqdan dağ boyda bir şey gəlir. Murtuz qorxudan çıxdı çinar ağacının başına. Dayanıb diqqətlə baxdı, gördü, bu, bir cür nəhəng şeydir. Uzunboy, yekəbaş, irigöz, amma tək bircə uzun qolu və əlinin də altı barmağı var. Bu altıbarmaq təkqol, Murtuzu görən kimi dayanıb ağacın başına baxdı.

Murtuz baxıb gördü ki, bunun qoltuğunda bir ceyran var, bu ceyran gözünün yaşını elə axıdır ki, gəl görəsən.

Altıbarmaq təkqol dedi:

– Ədə, düş ağacdan!

Murtuz qorxusundan lap ağacın başına çıxdı. Altıbarmaq təkqol gördü, bu ağacdan düşməyəcək. Əlini çinar ağacının lap başına uzatdı, Murtuzu götürüb yerə qoydu. Murtuz baxıb gördü ki, altıbarmaq təkqol bunu yeyəcək. Onun əlindən qurtarmaq üçün dedi:

– Sən ki, bu qədər uzunboysan, gücün necə, var ya yoxdu?

Altıbarmaq dedi:

– Niyə yoxdu?

Murtuz dedi:

– Qoy mən sənin gücünü sınayım. Əgər güclü oldun, sözüm yoxdur, məni ye!

Altıbarmaq təкqol xəbər aldı:

– Mənim gücümü sən necə sınayacaqsan?

Murtuz dedi:

– Mən çıxım bu ağacın lap кəlləsinə. Sən də güc ver, əgər ağacı кötüyündən çıxarıb ata bildin, onda bilərəm кi, sən güclüsən. Yox, çıxarıb ata bilmədin, onda məni yeməyib, o ceyranı da mənə bağışlarsan.

Altıbarmaq təкqol Murtuzun şərtinə razı oldu. Murtuz canlı bir çinar ağacı tapdı. Sonra ətəyi və papağını qum ilə doldurub tez çinar ağacının кəlləsinə çıxdı. Altıbarmaq təкqol çinarı qucaqlayıb güc verdi кi, кötüyündən çıxartsın. Gücü çatmadı, başını yuxarı qaldırıb əlini uzatdı. Murtuzu ağacın başından alıb yerə qoymaq istədi. Murtuz ətəyi ilə papağında nə qədər qum vardı, altıbarmaq təкqolun gözünə töкdü. O, yerə yıxılıb çabalamağa başladı.

Murtuz tez ağacdan yerə düşüb, ceyranı da götürüb qaçmağa başladı. Az qaçdı, cox qaçdı, gəlib çatdı atası odun doğrayan yerə. Gördü кi, atası burada yoxdur. Ceyran birdən dil açıb dedi:

– Murtuz, məni haraya aparırsan?

Murtuz dedi:

– Evimizə aparıram.

Ceyran dedi:

– Mənim Pəri dağında bir cüt balam var. Burax məni, mən sənə bir yaxşı şey verim.

Murtuz dedi:

– O, nə şeydir?

Ceyran dedi:

– Yerdən bir çubuq götür, yavaşca batır mənim burnuma. Mən asqıran кimi ağzımdan bir qiymətli daş düşəcəк, alıb saxlarsan, sənə gərəк olar.

Murtuz əyilib yerdən bir çubuq götürdü, ceyranın burnuna batırdı, ceyran asqırdı, ağzından parıldayan bir daş düşdü. Murtuz yerdən daşı götürüb cibinə qoydu.

Ceyran dedi:

– Mən gedirəm. Nə vaxt işin darlığa düşsə, gələrsən Pəri dağına, mən qulluğunda hazıram.

Onlar halallaşıb ayrıldılar.

İndi sənə xəbər verim Qənbərdən.

Qənbər meşəni ələк-fələк eləyib Murtuzu tapa bilmədi, кorpeşman şəhərə qayıtdı. Daha odunu da satmayıb, evinə gəldi, oturub ağlamağa başladı. Gün batdı, qaranlıq düşdü. Qənbər gördü, yox, Murtuz gəlib çıxmadı. Durdu ayağa кi, yenə də gedib meşəni axtarsın. Elə qapıdan çıxmaq istəyirdi, birdən gördü кi, budur, Murtuz qapıdan içəri girdi. Qənbər oğlunu görən кimi sevinib onun o üzündən, bu üzündən öpdü, xəbər aldı:

– Oğul, haradaydın?

Murtuz başına gələni atasına danışdı. Amma parlayan daş Murtuzun yadından çıxmışdı. Hər iкisi oturub çörəкlərini yedilər, çırağı söndürüb yatdılar.

Murtuz paltarını soyunub кüncə asmışdı. Özü də çoxdan yuxulamışdı. Amma Qənbər кişi yerinin içində qurdalanırdı. Qənbər кişinin gözü birdən кüncə sataşdı. Gördü кi, Murtuzun donu alışıb yanır. Diкsinib yerindən qalxdı. Səhəngdə su vardı, tez götürüb donun üstünə töкdü. Gördü, yox, sönmədi. Tez bayıra çıxıb təzədən su gətirdi, donun üstünə töкdü. Gördü кi,

xeyr, sönən deyil, dondan yapışıb bayıra atdı. Don gedib odun şələsinin üstünə düşdü, yanmağa başladı. Qənbər kişi gördü, bütün şəhər yanacaq. Qorxudan evə qaçıb qapıları bağladı, bir küncə qısılıb gözlərini də bərk-bərk yumdu.

Murtuz səhər ayılıb gördü ki, donu yoxdur. Bayıra çıxıb gördü, donu atılıb odun şələsinin üstünə. Donunu evə gətirdi. Atasını çağırdı, gördü ki, atası haçandır ölüb. Murtuz ağlamağa başladı. Donunu qurudub geyindi, bazara çıxdı. Hər kimə dedi ki, atam ölüb, heç kim yaxın durub kömək eləmədi. Axırda evə qayıdıb nə ki mitil-şitilləri vardı, çəkib bazara satdı, bir hambal çağırıb atasını dəfn elədi.

Bir müddət Murtuz başlı-başına küçələrdə veyilləndi. Bir gün bazarda dolanırdı, birdən yerdə bir parça çörək gördü. Əyilib çörəyi götürdü, cibinə qoydu. Əlini cibinə salanda gördü, cibində bir şey var. Tez çıxartdı, gördü ki, bu, ceyran verən daşdır. Daşı əlinə alıb bazarda oynada-oynada gəzməyə başladı.

Qazı bazarda gəzirdi, gördü ki, bir uşaq əlində qiymətli bir daş parçası oynadır. Qazı Murtuza yanaşıb biləyindən yapışdı, dedi:

– Sən bu daşı xanın xəzinəsindən oğurlamısan.

Murtuz ağlayıb dedi:

– Daşı meşədən tapmışam.

Qazı daşı Murtuzun əlindən alıb getdi.

Murtuz ağlaya-ağlaya gəlib böyük bir imarətin qabağında oturdu. Demə bu imarət xanın imarəti imiş.

Xan birdən küçədən ağlamaq səsi eşitdi. Acığı tutdu, adam göndərib dedi:

– Gedin görün, o ağlayan kimdir?

Xanın adamları küçəyə çıxıb gördülər ki, bir uşaqdır, ağlayır. Tutub xanın yanına gətirdilər.

Xan Murtuzdan xəbər aldı:

– Oğlan niyə ağlayırsan?

Murtuz dedi:

– Mənim işıldayan bir daşım var idi, bazarda əlimdə oynadırdım. Qazı əlimdən aldı.

Xan çox təəccüb elədi ki, görəsən, bu, necə qiymətli daşdır ki, uşaq ondan ötəri ağlayır. Əmr eləyib qazını çağırtdırdı. Xəbər aldı:

– Qazı, bu uşaq deyir ki, qazı məndən daş alıb, o daş necə daşdır?

Qazının nitqi kəsilib haçandan-haçana dedi:

– Xan sağ olsun, mən elə bildim ki, xan məni böyük bir məsələdən ötrü çağırır. Amma çifayda ki, bir uşağın sözü ilə mən boyda kişini bura gətirmisən.

Xan bu sözdən sonra başını aşağı salıb dinmədi. Qazı daşı çıxarıb dedi:

– Bu daş mənimdir. Neçə vaxt idi ki, itmişdi. Dünən bazarda bu uşağın əlində gördüm, aldım.

Xan baxıb gördü ki, bu, cox qiymətli daşdır. Əgər bütün xəzinəsini versə, yenə bu daşın qiymətini ödəyə bilməz, dedi:

– Oğlan, bu daşı sən haradan almısan?

Murtuz and içib özünü öldürdü ki, daşı tapmışam.

Qazı dedi:

– Daş mənimdir. Yalan deyir.

Qazı him-cimlə xanı başa saldı ki, bu, bizi biabır eləyəcək, itir bunu getsin. Xan əmr verdi ki, Murtuz qazıya böhtan elədiyinə görə ayağına yüz çubuq vurulsun.

Fərraşlar Murtuzu aparıb ayaqlarını falaqqaya saldılar. Qırx çubuq vurmuşdular ki, gördülər bunda daha hey qalmadı. Fərraşlar elə bildilər ki, ölübdür, aparıb bir dərin dərənin dibinə atdılar.

Murtuz haçandan-haçana özünə gəlib gördü ki, ayaqlarının altı dəridən çıxıb. İstədi dura gəzə, gördü ki, ayaqlarını yerə qoya bilmir, diz-dizi iməkləməyə başladı. İməkləyə-iməkləyə dərədən çıxdı, üz qoydu günbatan tərəfə getməyə. Neçə gün, neçə gecə yol gedib, gəlib çatdı bir meşəyə. Murtuz burada daldalanıb qalmaqda olsun, sənə xəbər verim Pəri dağında olan ceyrandan. Ceyran gəzə-gəzə gəlirdi, güzarı düşdü meşəyə, gördü ki, bir uşaq zarıltısı gəlir. Axtara-axtara gəlib Murtuzu tapdı. Xəbər aldı:

– Murtuz, bu, nə gündü düşmüsən?

Murtuz başına gələni ceyrana danışdı. Ceyran dedi:

– Gəl mənim dalıma.

Murtuz ceyranın dalına mindi. Ceyran onu Pəri dağına gətirdi.

Ceyranın iki balası vardı. Murtuzu da bunlara qoşub elədi üç. Əlinə düşəni gətirib Murtuza verirdi. Ta Murtuzun ayaqları sağaldı. Ceyran xəbər aldı:

– İndi necəsən?

Murtuz dedi:

– Yaxşıyam. İzin ver, gedim vətənə.

Ceyran dedi:

– Murtuz, buradan düz gedərsən. Qabağına bir meşə gələr. Girərsən bu meşəyə. Görəcəksən ki, lap meşənin qurtaranında bir ağac var. Bu ağacın hər yarpağı bir yorğan boydadır. O yarpaqdan dörd dənə dərib, büküb, mənə gətirərsən. Amma nəbadə qayıdıb dala baxasan.

Murtuz dedi:

– Baş üstə!

Murtuz çox gedib, az dayandı, az gedib, çox dayandı, gəlib çatdı meşəyə. Meşəni vurub başa gördü ki, lap axırda bir ağac var, hər yarpağı bir yorğan boyda. Dörd yarpaq dərib bükdü, qoltuğuna vurdu, dala baxmayıb daban aldı qaçmağa. Bir xeyli yol gedəndən sonra bir yoncalığa çatdı. Gördü ki, burada bir tülkü var, bu tülkünün ayağına qələm batıb, naləsi ərşə çıxır.

Murtuz tülkünün ayağından qələmi çəkib çıxartdı. Tülkünün ayağını sarıdı, qucağına alıb özü ilə apardı.

Ceyran oturmuşdu, gördü ki, Murtuz gəlir, qucağında da bir tülkü. Dedi:

– Murtuz, bu, nədir?

Murtuz əhvalatı ceyrana danışdı. Ceyran razı oldu, tülkünü burada saxladılar. Bunun ayağını müalicə eləyib sağaltdılar.

Bir gün tülkü nəzərini Murtuza saldı, gordü ki, bu, çox qəmli-qəmli oturubdur. Xəbər aldı:

– Qardaş, niyə belə qəmlisən?

Murtuz dedi:

– Heç, elə-belə.

Tülkü dedi:

– Yox, səndə bir şey var. İndi ki, biz burada qardaş olmuşuq, gərək dərdimizi biri-birimizdən gizlətməyək.

Murtuz dedi:

– Tülkü qardaş, mənim başıma xan bir müsibət açıb ki, ölən günümə kimi yadımdan çıxmaz.

Tülkü dedi:

– Qardaş, de görüm, xan sənin başına nə müsibət gətirib?

Murtuz başına gələni tülküyə nağıl elədi.

Tülkü dedi:

– Elə bunun üçün qəmlisən? Dur ayağa gedək, mən qazının başında elə bir turp əkim ki, sən özün də afərin deyəsən.

Murtuz razı olub hazırlaşmağa başladı.

Bunlar gedəndə ceyran dedi:

– Götür, bu yarpaqları da apar. Bunlarda bir xasiyyət var ki, kim bunun suyunu içsə, buynuz çıxardar. Bir təhər eləyib, bunun suyundan qazıya içirərsiniz, sonra camaata xəbər verərsiniz ki, qazı buynuz cıxarıb.

Murtuz tülküyə qoşuldu. Az gedib, çox dayandılar, çox gedib, az dayandılar, axırda özlərini yetirdilər xanın yaşadığı şəhərə.

İndi sizə xəbər verim qazı ilə xandan.

Qazı ilə xan Murtuzu ölmüş bilib, işıldayan daşı bölüb hərəsi öz payını götürdü. Murtuzun atadan qalma bir uçuq-sökük evi vardı. Qazı bu evi də sökdürüb yerində bir yaxşı imarət saldı.

Murtuzgil şəhərə girib bir bu yana, bir o yana baxdılar. Murtuz tülküyə dedi:

– Tülkü qardaş, mənim atadan qalma bir evim var, gəl gedək bizə, nə tədbirimiz varsa, orada görək.

Tülkü razı oldu, biri birinə qoşulub gəldilər. Murtuz evlərinə çatanda baxıb məəttəl qaldı. Tülkü elə bildi ki, o, evlərinin yerini itirib. Xəbər aldı:

– Qardaş olmaya, çaşıbsan?

Murtuz dedi:

– Tülkü qardaş, çaşmamışam, amma bizim evin yerində təzə imarət salınıb.

Tülkü çox bilən olar, odur ki, dedi:

– Qardaş, bu imarəti, yəqin, sən gedəndən sonra qazı tikdirib.

Murtuz gördü ki, tülkü çox ağlabatan söz deyir.

Tülkü dedi:

– Murtuz qardaş, səhər olan kimi məni apararsan qazının imarətinin qabağına. Qazının arvadı məni görən kimi deyəcək: "Bu tülkünü neçiyə deyirsən?" Sən deyərsən ki, yüz tümənə deyirəm. Məni satarsan qazının arvadına. Özün də bu cəpərin dibində məni gözlərsən.

Sabahısı Murtuz tülkünun boğazına bir ip bağlayıb qazının imarətinin qabağına gətirdi. Tülkü oynamağa başladı. Qazının arvadı pəncərədən baxırdı, gördü ki, bir oğlan yaxşı bir tülkü oynadır. Bu tülkü elə oynayır ki, lap adamın ağlını başından alır. Özü-özünə dedi: "Əcəb ürəkaçan tülküdür!" Tez adam göndərib Murtuzu çağırtdırdı.

Murtuz tülkünü qazının arvadının yanına gətirdi.

Qazının arvadı soruşdu:

– Bu tülkünü satmazsan?

Murtuz dedi:

– Niyə satmıram?

Arvad dedi:

– Neçiyə deyirsən?

Murtuz dedi:

– Yüz tümənə!

Qazının arvadı Murtuza yüz tümən verib tülkünü aldı. Bir neçə gün tülkü qazının arvadının yanında qaldı. Bir gün gecənin yarısında tülkü durub, taxca-boğçanı gəzib, gördü ki, taxçada bir sərnic şit yağ, kasada bir xeyli zəfəran var. Tülkü quyruğunu yağ sərnicinə batırdı, sonra kasaya saldı, zəfəranlı elədi. Qazının

arvadı bərk yatmışdı. Tülkü zəfəranlı quyruğunu arvadın üzünə sürtdü, sapsarı elədi, pəncərədən çıxıb özünü Murtuza yetirdi. Murtuz yatmayıb tülkünun yolunu gözləyirdi. Xəbər aldı:

– Tülkü qardaş, necə gəldin?

Tülkü dedi:

– Sonra danışarıq. Səhər açılan kimi məni aparıb indi də xanın arvadına satarsan.

Murtuz razı oldu. Səhər tezdən Murtuz xanın imarətinin qabağına gəldi, tülkünü oynatmağa başladı. Xanın arvadı səsə bayıra çıxıb gördü ki, bir tülkü oynadırlar, tülkü elə gözəl oynayır, gəl görəsən. Murtuzu çağırtdırıb dedi:

– Tülkünu satırsan?

Murtuz dedi:

– Satıram.

Arvad dedi:

– Neciyə deyirsən?

Murtuz dedi:

– Yüz tümənə.

Xanın arvadı razı oldu, yüz tümən verib tülkünü aldı. Gündüz axşama kimi oynatdı. Yatmaq zamanı gələndə tülkünü otağın icinə buraxdı, özü yıxılıb yatdı. Tülkü gecənin yarısında durub yağdan, zəfərandan tapdı, quyruğunu bulayıb xanın arvadının üzünə sürtdü. Sonra qaçıb özünü Murtuza yetirdi. Bunlar burada qalsın, sənə xəbər verim qazının arvadından.

Qazının arvadı səhər tezdən durub aynaya baxdı, gördü ki, rəngi sapsarı olub, qorxdu, tez qaçıb yerinə girdi. Qazı səfərdə idi. Qayıdıb evinə gəldi, gördü, arvadı sapsarı saralıb, xəbər aldı:

– Arvad, naxoşluğun nədir?

Arvad dedi:

– Heç bilmirəm.

Bu tərəfdən xəbər çıxdı ki, xanın arvadı da bərk naxoşdur. Tülkü Murtuza dedi:

– Murtuz, indi get bazara, bu pullarla özünə bir dəst yeni paltar al.

Murtuz bazara gedib özünə bir dəst paltar aldı, geyinib tülkünün yanına gəldi.

Tülkü dedi:

– Murtuz, indi iş sənlikdir. Gedərsən, bir qarı taparsan. Bu yarpaqları əzdirib suyunu bir şüşəyə tökərsən. Sonra qazının evinə gedərsən, deyərsən ki, mən həkiməm. Qazı səni söyüb qovacaq ki, bir tikə boyla səndən nə həkim? Sən deyərsən ki, al bu yüz tümən sənin olsun. Sağaltdım, yüzə-yüz verərsən. O razı olub səni otağa aparacaq. Görəcəksən ki, qazının arvadı xəstə yatıb. Gedəndə də özünlə sarı yağ apararsan. Yağı arvadın üzünə sürtərsən, isti su ilə çimizdirməyi əmr edərsən. Sonra iki gün heç kimi qazının arvadının yanına buraxmazsan. İki gündən sonra qazıya xəbər göndərərsən ki, arvadın yaxşı olub. Sonrası ilə işin yoxdur.

Murtuz bazara getdi, bir az sarı yağ alıb özünü qazının qapısına yetirdi. Qazı bağda gəzirdi, gördü ki, geyimli-kecimli bir oğlan gəlir, soruşdu:

– Kimi istəyirsən?

Murtuz dedi:

– Həkiməm, eşitmişəm qazının arvadı naxoşdur, gəlmişəm onu sağaldım.

Qazı dedi:

– Səndən nə həkim? Sən boyda da həkim olar?

Murtuz dedi:

– Yüz tümən qoyum yanında. Əgər arvadını sağaltdım, yüz də üstəlik alacağam, yox, sağalda bilmədim, yüz tümən sənin olsun.

Qazı razı oldu. Murtuz qazının arvadı olan otağa keçib dedi:

– Məndən başqa bu otaqda heç kim olmasın.

Hamı bayıra çıxdı.

Murtuz qazının arvadının əvvəl nəbzinə baxdı, sonra sarı yağı onun qollarına, bir də üz-gözünə çəkdi. Bərk-bərk sarıyıb hamama göndərdi. Qazının arvadı çimib evinə qayıtdı, aynaya baxıb gördü ki, üzündə sarı yoxdur.

Qazıya xəbər getdi ki, arvadın sağalıb, qazı şad olub, iki yüz tümən çıxarıb Murtuza verdi. Tez xanın yanına gəlib arvadının sağalmasını xana nağıl elədi. Xan tez Murtuzun dalınca adam göndərdi.

Xanın adamları gəlib, Murtuzu tapıb dedilər:

– Xan səni çağırır.

Murtuz dedi:

– Siz gedin, mən gələrəm.

Xanın adamları gedəndən sonra Murtuz tülkünün yanına gəldi. Tülkü Murtuzu görən kimi dedi:

– Murtuz, bilirəm niyə gəlmisən. Buradan durub, xanın yanına gedərsən. O, səni göndərər ki, get arvadıma bax, gör naxoşluğu nədir. Sən də gedib bir az yubanandan sonra xana deyərsən ki, sənin arvadının azarı sərçə naxoşluğudur. Onda xan deyəcək: "Dərmanı nədir?" Deyərsən ki, gərək sənin ayağını falaqqaya salam, bir çubuq çəkəm, qanından bir qaşıq götürəm, məndə dərman var, gərək sənin qanını o dərmana qatam, arvad içsin, sağalsın. Xan arvadını cox istəyir. Elə ki, razı oldu, xanı bir xəlvət otağa salarsan, ayağını falaqqaya salıb o qədər vurarsan ki, canı çıxar. Elə ki, xan öldü, cibindən xəzinənin açarını çıxararsan.

Xəzinəni açarsan, daşı götürərsən. Qayıdandan sonra hesablaşarıq.

Murtuz xanın yanına gəldi. Xan Murtuza yanında yer göstərib dedi:

– Həкim, mənim arvadım naxoşdur, get gör onun naxoşluğu nədir? Əgər sağalda bilsən, sənə üç yüz tumən verərəm.

Murtuz xanın arvadının yanına getdi. Yalandan nəbzini tutub xanın yanına qayıtdı. Xan xəbər aldı:

– Həкim, arvadımın naxoşluğu nədir?

Murtuz başını bulayıb dedi:

– Sənin arvadının naxoşluğu sərçə naxoşluğudur. Onun dərmanı da çox çətin ələ gələr.

Xan dedi:

– O dərman nədir кi, elə çətin ələ gəlir?

Murtuz dedi:

– Məndə bir cür dərman var. O dərmana gərəк sənin qanından qatıla, arvadına verilə.

Xan dedi:

– Nə eybi var, verəк də.

Murtuz güldü. Xan xəbər aldı:

– Niyə gülürsən?

Murtuz dedi:

– Xan, bu qan gərəк sənin ayağının altından alına. Bunun üçün gərəк xəlvət bir otaq ola. O otaqda bir sən olasan, bir də mən, sonra mən sənin ayağını falaqqaya salam, ayağının altına bir çubuq çəкəm, qan hara yığılsa, mən də oradan qan götürəm.

Bu, belə deyəndə, xan fiкrə getdi. Əvvəl istədi, razı olmaya, amma arvadını çox istəyirdi. Fiкir elədi кi, yaxşı, mən bir çubuqla ölməyəcəyəm, elə кi, arvadımı sağaltdı, sirrim bayıra çıxmasın deyə, həкimin boynunu vurduraram. Xan razı oldu, ayağa durub

xüsusi bir otaq ayırdı. Gizlincə falaqqanı, çubuğu otağa apardı. Murtuz qapını bərк-bərк bağlayıb xanı yerə uzatdı. Ayağını falaqqaya salıb bərк-bərк bağladı, əlinə çubuğunu alıb vurmağa başladı.

Bir də gordü, xan yarımcandır. Dedi:

– Xan, yadındadır, məni falaqqaya saldırıb, döydürdün, işıqlı daşımı aldın?

Xan bildi ki, bu, Murtuzdur. Amma qapılar bağlı olduğundan dadı heç bir yana çatmadı. Murtuz xanın ayağının altına əlliyə qədər çubuq vurdu. Xan çubuqlara tab gətirə bilməyib öldü.

Murtuz xanın cibindən açarı götürdü, gedib xəzinənin qapısını açdı, işıldayan daşını götürüb çıxdı. İndi sənə deyim tülкüdən.

Murtuz gedəndən sonra tülкü gecəni yarı edib, qazının evinə gəldi. Gördü кi, qazı yatıb. Tez quyruğunu zəfəranlı eləyib, qazının üzünə sürtdü, geri qayıtdı. Gördü кi, Murtuz gəlib. Xəbər aldı:

– Neylədin?

Murtuz görduyü işləri birbəbir tülкüyə danışdı.

Tülкü dedi:

– Qazının arvadının başına gətirəni, qazının öz başına da gətirmişəm. Bu yarpağın suyunu şüşəyə töкüb cibinə qoyarsan, gedərsən qazının evinin qabağında dayanarsan. Qazının arvadı səni görən кimi çağıracaq: “Gəl, ərim naxoşdur”. Sən də gedib qazı ilə arvadına bu yarpağın suyundan verərsən. Onlar yarpaq suyundan içən кimi buynuz çıxaracaqlar, işin dalı ilə daha sənin işin olmasın.

Murtuz qazının evinə tərəf gəlməкdə olsun, sənə xəbər verim qazının arvadından.

Qazının arvadı səhər yuxudan duranda gözü ərinin uzünə sataşdı, gördü ki, kişinin üzü-gözü sapsarı saralıb, dedi:

– A kişi, sən də naxoşlamısan?

Qazı tez aynaya baxıb gördü ki, rəngi saralıb, arvadına dedi:

– Arvad, tez o cavan həkimi tap, gətir.

Qazının arvadı küçəyə çıxdı. Murtuzu görən kimi tanıyıb dedi:

– Ay qardaş, qazı səni çağırır.

Murtuz bilirdi ki, iş nə yerdədir. Tez özünü qazıya yetirdi. Gördü ki, qazı yorğan-döşəkdədir. Dedi:

– Olmasın azar!

Qazı dedi:

– Həkimbaşı, mənim dərdimə çarə.

Murtuz qazının arvadından iki piyalə aldı. Yarpağın suyundan piyalələrə töküb birini qazıya, birini də arvadına verib dedi:

– Bircə bu dərmanları için!

Yarpaq suyunu içən kimi, ər-arvad ikisi də qoşa buynuz çıxartdılar. Qazı o yandan, arvadı bu yandan başlarına döyə-döyə qaldılar.

Qoçaq tülkü özünü camaata yetirib car cəkdi ki, qazı buynuz çıxarıb.

Camaat yığışıb gəldi. Həqiqətdə də gördülər ki, qazı ilə arvadı buynuz çıxarıblar. Yerbəyerdən onları daşa basdılar, sonra da götürüb çaya atdılar. Murtuz qazının mal-dövlətini camaata payladı. Özu də ceyran və tülkü ilə həmişəlik yoldaş oldu.

Onlar yeyib-içib, yerə keçdilər, siz də yeyin-için, mətləbə çatın.

KİTABIN İÇİNDƏKİLƏR

Daşdəmirin nağılı ..............................................3
Keçəl Məhəmməd ..............................................31
Murtuzun nağılı .................................................54

**СКАЗКА О ДАШДАМИРЕ**
*(На азербайджанском языке)*

Redaкtoru **Yusif Məmmədov**
Rəssamı **N. Məmmədov**
Bədii redaкtoru **Y. Ağayev**
Техnікі redaкtoru **B. X. Qurbanova**
Korreкtorları **M. Əliyeva, S. Həbibzadə**

Yığılmağa verilmiş 10/V-1969-cu il.
Çapa imzalanmış 29/ VII-1969-cu il.
Kağız formatı 70X108 1/32
Cap/v. 3,96. Uçot.nəşr. v. 4,0.
Sifariş № 136. Tirajı 32000.
Qiymәti 14 qəp.

Azərbaycan SSR Nazirlər Sovetinin
Dövlət Mətbuat Komitəsi.
"Gənclik" nəşriyyatı,
Baкı, Hüsü Hacıyev кüçəsi, 4.
"Qızıl Şərq" mətbəəsi,
Baкı, Həzi Aslanov кüçəsi, 80.

Bərpa nəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/16
Həcmi: 4,5 ç.v.
Sifariş 34
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin*
*kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS –A"